Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

27
FEVRAL
2020-ci il

№ 36 (4167)

Qiymətı
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANIN İSRAİLDƏKİ SƏFİRLİYİ İRƏVANDAN TƏL-ƏVİVƏ KÖÇDÜ - AZƏRBAYCAN - İSRAİL ƏMƏKDAŞLIĞINDA NƏ DƏYİŞƏ BİLƏR...

■ səh. 10 ■



■ səh. 9 ■

## Azərbaycanla Türkiyənin vektorları Ermənistan istiqamətində düzgün inkişaf edir...

*Azərbaycanın Türkiyədən alacağı yeni silahlar düşməni indidən lərzəyə salır*

Prezident İlham Əliyev: "Trampın fəal iştirakı əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu" ■ səh. 2 ■

Naxçıvanla bağlı məkrli erməni planlarına yeni zərbə - Naxçıvan-Türkiyə dəmir yolu və qaz kəməri... ■ səh. 5 ■

Azərbaycanın Avropada mövqelərinin güclənməsi ermənilərin narahatlığını artırdı... ■ səh. 7 ■

Azərbaycan dünyanın böyük 7-ləri ilə çoxölçülü strategiyaya başladı - İtaliya ilk ölkə... ■ səh. 8 ■

Türkiyə XİN-dən, Prezident Administrasiyasından, Türkiyə Müdafiə Nazirliyindən Xocalı bəyanatı... ■ səh. 2 ■

Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi ■ səh. 11 ■

İdlib dünya müharibəsi ərəfəsində - Rusiya, İran, Suriya bir, NATO və Türkiyə digər tərəfdə... ■ səh. 12 ■



Prezident Əliyev Ərdoğana bütün regional məsələlərdə Azərbaycan dövləti və xalqının dəstəyini vəd etdi ■ səh. 8 ■

İlham Əliyev Türkiyə ilə Qoşulmama Hərəkatının münasibətlərində yeni səhifənin anonsunu verdi... ■ səh. 5 ■




Rusiya media dairələrində Xocalı faciəsinə diqqət sürətlə artır - Prosesin mahiyyəti... ■ səh. 3 ■

■ səh. 6 ■ 2020-ci ildə Azərbaycanla Türkiyənin birgə hərbi təlimlərinin sayını artırmaq rəsmən bəyan edildi



■ səh. 3 ■ Prezident Əliyevin Xocalı videoçarxının rəmzi tərəflərini sənətşünaslar necə təhlil etdi...



■ səh. 10 ■ İstanbulda Suriya üzrə dörd dövlətin zirvəsi baş tutmadı - son anda Putin...



■ səh. 14 ■ Çanaqqalada Azərbaycan şəhidlərinə xüsusi abidə...



■ səh. 13 ■ Azərbaycan - Türkiyə ticarətində yeni hədəf - preferensial ticarət nə deməkdir...



### Prezident İlham Əliyev: "Trampın fəal iştirakı əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu"

**Prezident İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan Prezident İlham Əliyev deyib:

-Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm. Bu, həqiqətən də yaxşı ənənəyə çevrilib. Biz hər il nəticələri nəzərdən keçirir və gələcək işləri planlaşdırırıq. Biz artıq yekun mərhələyə yaxınlaşan Cənub Qaz Dəhlizi layihəsinin ildən-ilə çox mühüm icrasını müşahidə edirik. Ümidvaram ki, bu ilin sonunadək bütün işlər tam yekunlaşacaq. Bildiyiniz kimi, biz layihənin açılışını mərhələli şəkildə etmişik. 2018-ci ildə Bakıda təntənəli mərasim təşkil etdik və Cənub Qaz Dəhlizinin istismara verildiyini rəsmi olaraq elan etdik. Sonra əlbəttə ki, TANAP-la bağlı çox mühüm tədbir oldu. Ötən ilin noyabrında TANAP artıq Avropa sərhədinə çatdı. Bu, bizə "Şahdəniz" və digər qaz yataqlarından daha çox təbii qaz ixrac etməyə imkan verəcək. Çünki bizim planımız fəaliyyətimizi genişləndirmək və hələ ki, kəşfiyyat mərhələsində və ya yekun hazırlıq mərhələsində olan digər yataqlardan hasilat səviyyəsini artırmaqdır.

Beləliklə, bütün işlər qrafikə uyğun gedir. Mən bu mühüm layihənin icrasında göstərdiyi davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığımı bildirmək istərdim. Bilirəm ki, Prezident Tramp şəxsən prosesdə iştirak edir. Onun fəal təmasları və iştirakı bizim əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu. Hazırda biz heç bir başqa maneə görmürük. Qarşıdakı yol çox aydındır. Əminəm ki, səmərəli əməkdaşlığımız gələcəkdə davam edəcək, çünki ABŞ hökuməti bizim istər neft və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman çox dəstəkləyib. Bir daha xoş gəlmisiniz.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnelli ilk dəfə Bakıya 2004-cü ildə gəldiyini, ötən dövr ərzində paytaxtımızda həyata keçirilən böyük inkişaf proseslərinin şahidi olduğunu vurğulayıb. Cənub Qaz Dəhlizinin əhəmiyyətinə toxunan Kurt Donnelli bu layihənin tamamlanma mərhələsinə daxil olması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Kurt Donnelli Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda keçiriləcək nazirlərin altıncı toplantısının əhəmiyyətinə toxunub və bu formatda aparılan müzakirələrin önəmini qeyd edib.

Görüşdə son dövrlərdə Azərbaycanda alternativ enerji mənbələrinin inkişafına dair fikir mübadiləsi aparılıb.

### Serj Sarkisyanın və Robert Köçəryanın istintaqı davam etdirilir




**Ermənistanın sabiq prezidenti Serj Sarkisyan və Robert Köçəryanla bağlı hazırda istintaq davam etdirilir.**

"Trend"in məlumatına görə, bunu Hərbi Prokurorluğun xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Xarici İşlər Nazirliyi ilə Baş Prokurorluğun birgə mətbuat konfransında deyib.

E.Tağıyev vurğulayıb ki, Xocalıya hücum zamanı 613 nəfər qətlə yetirilib: "Xocalı soyqırımı zamanı şəhərin 5 379 nəfər əhalisi deportasiya olunub. Cinayət işi üzrə 5 istiqamət müəyyən edilib. Cinayət işinin istintaqı zamanı 39 nəfər Xocalı soyqırımı, 3 nəfər terror cinayətləri, ümumilikdə isə 305 şəxsin əməlləri Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulan hallar üzrə sübuta yetirilib. Axtarışların təmin edilməsindən ötrü materiallar müvafiq təşkilatlara göndərilib. Onlardan 2 nəfər cinayət məsuliyyətinə cəlb edilib". Xocalı soyqırımı ilə bağlı məsələyə Beynəlxalq Cinayət Məhkəməsində baxılmamasına aydınlıq gətirən Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva isə qeyd edib ki, Xocalı faciəsi 1992-ci ildə baş verib, Beynəlxalq Cinayət Məhkəməsi isə 2002-ci ildə yaradılıb: "Bu günə qədər nə Azərbaycan, nə Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasını qəbul etmir. Ona görə də Xocalı ilə bağlı ancaq milli səviyyədə həmin şəxslər barəsində cinayət işi açılıb".

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində...



**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər.**

Bu faciədən 28 il ötür. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideyinlərindən birini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini anırlar.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak edib.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib. Birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət nümayəndələri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri abidənin önünə gül dəstələri qoyublar.

# Türkiyə XİN-dən, Prezident Administrasiyasından, Türkiyə Müdafiə Nazirliyindən Xocalı bəyanatı...

**Türkiyə Xarici İşlər Nazirliyi (XİN) Xocalı soyqırımının ildönümü ilə məlumat yayıb. Bu barədə "Trend" Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi saytına istinadən məlumat verir.**



Məlumatda qeyd olunur: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan ordusunun silahlı dəstələri Azərbaycanın torpağı olan Dağlıq Qarabağın Xocalı şəhərin hücumu nəticəsində şəhərdə olan 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 dinc sakin ağır yaralanıb.

Azərbaycan ərazilərinin işğalı, o cümlədən mülki əhaliyə qarşı edilən qeyri-insani hücum nəticəsində bir milyondan çox azərbaycanlı evlərini tərk edərək öz ölkələrində qaçqın kimi yaşamağa məcbur olub.

Hazırda Azərbaycan ərazisinin iyirmi faizi işğal altındadır.

Xocalıda törədilən bu qətliamı və Azərbaycan torpaqlarının illərdən bəri davam edən işğalını pisləyirik".

Dünya ictimaiyyəti Xocalı faciəsinə göz yummamalıdır. Bunu isə "Trend"ə Türkiyə Prezident Administrasiyasından deyiblər.

Qeyd olunub ki, Azərbaycanın dinc sakinlərinin qırğını bəşəriyyətin vicdanına qara ləkədir.

Xocalı soyqırımının 28-ci ildönümünü şərh edərkən Administrasiyadan bildiriblər ki, Türkiyə beynəlxalq ictimaiyyət tərəfindən Xocalı faciəsinə layiqli qiymət verilməsini gözləyir: "Türkiyə azərbaycanlı qardaşlarının ağrı-acısını bölüşür və heç vaxt bu faciəni unutmayacaq".

Administrasiyadan, həmçinin xatırladıblar ki, Türkiyə əvvəl olduğu kimi, Ermənistanı Azərbaycan ərazilərinin işğalını dayandırmağa və bu torpaqları qanuni sahiblərinə qaytarmağa çağırır: "Türkiyə hər zaman Azərbaycanı bütün istiqamətlərdə dəstəkləyib və dəstəkləməkdə davam edəcək. Türkiyə Xocalıdakı dəhşətli faciə ilə əlaqədar Azərbaycan xalqına dərin başsağlığı ifadə edir".

Türkiyə Xocalı faciəsinin həqiqi günahkarlarını unutmayacaq.

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin açıqlamasında deyilir.

Qeyd olunur ki, Türkiyə 28 il əvvəl ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş vətəndaşların xatirəsini anır:

"Bir millət - iki dövlət" deyərək biz azərbaycanlı qardaşlarımızla çiyin çiyinə dayanmaqda davam edəcək və bu qırğını törədənləri unutmayacağıq!"

İyirminci yüzilliyin ən dəhşətli genosid aktlarından biri olan Xocalı soyqırımının 28 illiyi ölkəmizin hər yerində böyük hüznlə, kədərlə qeyd olunur. Məlumdur ki, Prezident İlham Əliyevin rəsmi "Facebook" səhifəsində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar videoçarx yerləşdirilib.

***Ənvər Çingizoğlu:** "...Xocalı soyqırımına münasibətdə ədalətin qələbə çalacağına bəslənən böyük ümiddir"*

***Aydın Xan Əbilov:** "Cənab Prezidentin də öz "Facebook" hesabında paylaşdığı videoçarxdan da göründüyü kimi, 613 şamın sönməsi həmin 613 insanın həyatının ermənilər tərəfindən söndürülməsi deməkdir"*

# Prezident Əliyevin Xocalı videoçarxının rəmzi tərəflərini sənətşünaslar necə təhlil etdi...




Videoçarxın təsvirində deyilir: "Ədalət zəfər çalacaq!"

Klassik musiqi ilə sintez edilən "Bayatı-Şiraz"ın sədaları altında hazırlanan videoçarxda nümayiş olunan hər bir şam bir şəhidin obrazıdır. Sonda isə şamlar birləşib səmada ulduza çevrilir və 613 rəqəmi yaradır.

Bu videoçarxın simvolik, rəmzi mənası nədir, o, dünyaya hansı mətnaltı mesajları ötürür?

Tanınmış mütəxəssis Ənvər Çingizoğlu "Bakı-Xəbər"ə bildirdi ki, bu kiçik videoçarxın böyük mənası var. Tədqiqatçı qeyd etdi ki, hər şam Xocalıda şəhid olan bir azərbaycanlının alov saçıb "intiqam" hayqıran obrazıdır. "Bu kiçik videoçarx özündə böyük məna daşıyır. Mənim yozumum belədir ki, videoçarxda səsləndirilən klassik musiqi rəngi Xocalıda ermənilər tərəfindən azərbaycanlıların vəhşicəsinə qətlə yetirildiyini, soyqırıma məruz qaldığını, muğam ahəngi isə Azərbaycan xalqının işğal faktı ilə barışmayacağını və öz yurdlarına qayıdacağını, eyni zamanda da nahaq qanın yerdə qalmayacağını ifadə edir. Yanan şamlar isə Xocalı şəhidlərinin həmin gecə od-alova bülənd olan, "imdad" deyə-deyə dünyaya hayqıran, qisas hissi ilə yanan ruhlarıdır. Hər bir şam soyqırıma məruz qalan bir Xocalı şəhidinin "qisas" deyə alovlanan ruhudur. Bildiyimiz kimi, Xocalı soyqırımı zamanı ermənilər 613 nəfər azərbaycanlını qətlə yetirib, yandırıb, meyitləri təhqir edib, 1275 nəfəri isə girov götürüb. Videoçarxın sonunda bütün şamların ulduz-ulduz 613 rəqəminə çevrilərək səmaya çəkilməsi isə qisasın qiyamətə qalmayacağına bir işarədir. Bəli, sonda qeyd edilir ki, ədalət zəfər çalacaq. Biz də əminik ki, gec-tez, Xocalı soyqırımını törədənlər ədaət qarşısında cavab verəcəklər. Bütövlükdə, videoçarxın rəmzi, simvolik mənası Xocalıda ermənilər tərəfindən şəhid edilən soydaşlarımızın qanının yerdə qalmayacağına, Xocalı soyqırımına münasibətdə ədalətin qələbə çalacağına bəslənən böyük ümiddir".

Tanınmış yazıçı-kulturoloq Aydın Xan Əbilov da bildirdi ki, Xocalı soyqırımı XX əsrin ən dəhşətli soyqırımlarından biridir və Azərbaycan tarixində belə faciələri çox yaşamışıq. "Amma Xocalıda böyüklü-kiçikli, qadınlı-kişili 613 nəfər qətlə yetirilib, soyqırıma məruz qalıb, minlərlə ailənin taleyi zülmətə qərq olub. Cənab Prezidentin də öz "Facebook" hesabında paylaşdığı videoçarxdan da göründüyü kimi, 613 şamın sönməsi həmin 613 insanın həyatının ermənilər tərəfindən söndürülməsi deməkdir. Ona görə də bunun yalnız simvolik deyil, həm də konkret mənası var. Yəni Dağlıq Qarabağ müharibəsində Xocalıda, Kəlbəcərdə və digər yerlərdə soyqırımlar baş verib. Bu videoçarxa həm də indiyə qədər Azərbaycan xalqına qarşı baş verən bütün soyqırımların simvolik obrazı kimi də baxmaq olar. Bu gün bütün dünyada Xocalı soyqırımı genosid aktı kimi qəbul edilir. Videoçarxın rəmzi mənası odur ki, Azərbaycan xalqı heç zaman bu soyqırım aktı ilə razılaşmayacaq. Cənab Prezident də ədalətin zəfər çalacağını vurğulayarkən işğal altında olan torpaqlarımızın geri qaytarılacağını, 1 milyona yaxın qaçqın və məcburi köçkün, didərginlərimizin öz yurdlarına qayıdacağını, Azərbaycanın öz dövlət sərhədlərini bütövləşdirəcəyini, iqtisadi-siyasi, ictimai-mədəni, hətta mənəvi cəhətdən xalqımızın, cəmiyyətimizin işğalçı Ermənistan cəmiyyətindən daha yüksək səviyyədə olduğunu, daha da inkişaf edəcəyini ifadə etmiş oldu" - deyə A.X.Əbilov qeyd etdi.

***İradə SARIYEVA***

Bu il Rusiya mətbuatının Xocalı soyqırımına ötən illərə nisbətən daha böyük diqqət ayırdığı məlum olur. Həmin ölkənin bir çox tanınmış elektron və yazılı KİV-i faciə ilə bağlı geniş materiallar yayımlayıb.




# Rusiya media dairələrində Xocalı faciəsinə diqqət sürətlə artır - Prosesin mahiyyəti...

***Azər Həsrət:** "Rusiya mediasında belə bir yanaşmanın meydana gəlməsi, hər halda, Azərbaycanın apardığı düzgün təbliğatın nəticəsidir"*

Rusiyanın tanınmış "arqumenti.ru" saytında mövzunu geniş əhatə edən material "Xocalı - sağalması mümkün olmayan ağrı" başlığı ilə təqdim olunub. "m.newizv.ru" isə təqdimatı "Əsrin vəhşiliyi" başlığı ilə təqdim edir. "Ura.news" saytı isə oxuculara belə sual başlığı ilə müraciət edir: "30 il əvvəl törədilən genosid niyə hələ də Azərbaycanın aldığı zərbədir?". Çox populyar "lenta.ru" saytı isə başlığı belə seçib: "Qadın və uşaqlar qarda öldürülüblər". Bu xəbərdə bildirilir ki, 28 il əvvəl, 1992-ci il fevralın 25-dən-26-na keçən gecə Dağlıq Qarabağın Xocalı şəhərində azərbaycanlıların qurbanı olduqları faciə baş verib: "Qarabağ münaqişəsinin ortasında, Ermənistan silahlı qüvvələri strateji əhəmiyyətə malik olan şəhəri mühasirəyə alıb və sonra hücuma keçib. Bu əməliyyat dinc sakinlərin kütləvi ölümü ilə nəticələnib. 600-dən çox yerli azərbaycanlı, əsasən uşaqlar, qadınlar və qocalar öldürülüb. Xocalı faciəsindən 28 il ötməsinə baxmayaraq, günahkarlar hələ də cəzasız qalıb".

Rusiya mətbuatının faciənin builki ildönümünə belə diqqətli və əhatəli yanaşmasının kökündə hansı məsələ dura bilər?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu tendensiyanı onun özü də müşahidə edib: "Düzü, bir qədər gözlənilməz oldu. Bir faktı da qeyd edim ki, fevralın 24-də "Nezavisimaya qazeta"da Sumqayıtda törədilmiş hadisələrin mahiyyətinə də ətraflı işıq salınıb. Lev Əskərovun yazısında hadisələrin mahiyyətilə bağlı obyektiv mövqe sərgilənir. Faktlarla sübut olunur ki, Sumqayıtdakı qırğınları ermənilər planlayıb və həyata keçiriblər. Rusiya mediasının bu obyektivliyi alqışlanmalıdır. Bu, artıq buzun tərpəndiyinin göstəricisidir. Belə nəticəyə gəlirik ki, deməli, işləyəndə əldə nəticə olur. "Lenta.ru" saytında şəkilləri gördüm. O vaxt çəkilib və paylaşılmayan dəhşətli fotoların Rusiya mediasında tirajlanması bizim üçün çox önəmlidir. "Qazeta.ru"da bizim insanların başına gətirilən müsibətlər barədə danışılır və sual edilir ki, Xocalı faciəsinin günahkarı kimdir? Bu çox ciddi bir yanaşmadır. Rusiya mediasında belə bir yanaşmanın meydana gəlməsi, hər halda, Azərbaycanın apardığı düzgün təbliğatın nəticəsidir.

Azərbaycan istər dövlət, istərsə də qeyri-hökumət xətti ilə həqiqətlərin dünyaya çatdırılması istiqamətində ciddi işlər görür. Biz bu yöndə fəaliyyətimizi davam etdirməliyik. Rusiya mediasına əli çatan, sözü keçən şəxslər dayanmamalıdır. Bu həqiqətlərin dünyaya car çəkilməsi çox lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan XİN və Baş Prokurorluğu Xocalı soyqırımının ən ilginc elementləri ilə əlaqədar bəyanat yaydı...

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) və Baş Prokurorluğu Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar bəyanat yayıblar. Baki-xeber.com xəbər verir ki, bəyanatda deyilir: "Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda törədilmiş qırğının 28-ci ildönümü tamam olur.**

Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü nəticəsində, Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla, Azərbaycan ərazilərinin təqribən beşdə biri işğal olundu və bu ərazilərdə, eləcə də Ermənistan ərazisində yaşayan bir milyondan çox yerli azərbaycanlı etnik təmizləməyə məruz qaldı.

Sözügedən təcavüz zamanı azərbaycanlı mülki əhaliyə qarşı çoxsaylı cinayətlər, o cümlədən soyqırımı aktları törədildi və bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı ilə əlaqədar oldu. Münaqişədən əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə 7000 insan yaşayırdı. 1991-ci ilin oktyabr ayından şəhər tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı moto-atıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.

Xocalı soyqırımı zamanı şəhərin 5379 nəfər sakini zorakılıqla qovulmuş, 1275 insan əsir və girov götürüləərək işgəncələrə məruz qalmış (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 8 ailə tam məhv edilmiş, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərinin hər ikisini itirmiş, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca işgəncə verilməklə vəhşicəsinə öldürülmüşdür. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulmuşdur.

Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəblərinin və nəticələrinin ümumi qiymətləndirilməsi və Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, sülh və insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunda aparılan istintaqla bir sıra hərbi qulluqçuların və digər şəxslərin Xocalı soyqırımının törədilməsində iştirakı tam sübuta yetirilib və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımı, işgəncə, əhalini deportasiya etmə, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar çıxarılıb.

Xocalı soyqırımı epizodu üzrə aparılan istintaq zamanı 7500-ə yaxın istintaq hərəkəti icra edilib, o cümlədən 1800-dən çoxu şəhid və 2700-dən çoxu zərərçəkmiş şəxs qismində olmaqla 4500 nəfərdən çox şəxs dindirilib, 800-dən artıq müxtəlif növ ekspertizalar keçirilib, digər istintaq hərəkətləri icra edilib.

Xocalı soyqırımından 1 il sonra, 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalını pisləyən və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörməti, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazilərin güc yolu ilə ələ edilməsinin yolverilməzliyini təsdiq edən 4 (822, 853, 874, 884 saylı) qətnamə qəbul etdi. Beləliklə, Ermənistanın ərazi iddialarına və əməllərinə cavab olaraq Təhlükəsizlik Şurası Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu təsdiq etdi və bütün işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Bu mövqe çoxsaylı beynəlxalq təşkilatların qərar və qətnamələrində də öz əksini tapır.

Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə hücumda iştirak edənlərin davranışını müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan hərəkətlər kimi qiymətləndirərək mühüm nəticəyə gəlib.

Hazırda 16 dövlətin milli qanunvericilik orqanı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı Xocalıda dinc əhalinin qırğınının ən kəskin şəkildə pislənilməsi və Xocalı faciəsinin soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi tanınmasına dair qətnamə və qərarlar qəbul ediblər.

2020-ci ilin fevral ayında Azərbaycan Hökumətinin müraciəti əsasında tanınmış beynəlxalq hüquq eksperti Malkolm Şou tərəfindən hazırlanmış "Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş müharibə cinayətləri və Ermənistanın məsuliyyəti" adlı hesabat BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədləri kimi dərc olunub. Əsas faktları, tarixi arayışı, beynəlxalq humanitar hüququn ümumi çərçivəsini və Ermənistanın məsuliyyətinin təhlilini ehtiva edən hesabatda Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində törədilmiş hərbi cinayətlər araşdırılır, o cümlədən Xocalı qırğını insanlığa qarşı cinayət və soyqırımı kimi xarakterizə olunur.

Lakin Ermənistan hələ ki, dünya ictimaiyyətinin mövqeyinə, xüsusilə Azərbaycanın zəbt olunmuş torpaqlarından işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam geri çəkilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymur və beləliklə, beynəlxalq hüququ kobudcasına pozmaqda davam edir. Ermənistan qəsb olunmuş ərazilərdə hərbi mövcudluğunu saxlayaraq, həmin ərazilərin demoqrafik, mədəni və fiziki xarakterini dəyişdirərək, yüz minlərlə azərbaycanlının orada yerləşən doğma yurd-yuvalarına qayıtmasının qarşısını alaraq, işğala əsaslanan mövcud status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Ermənistan Respublikasının beynəlxalq hüquqa zidd fəaliyyətləri ilə bağlı məsuliyyətləri ilə yanaşı, beynəlxalq cinayət hüququnun adət və müqavilə normalarına əsasən, Xocalı şəhərində törədilənlər də daxil olmaqla silahlı münaqişə kontekstində törədilmiş müəyyən fəaliyyətlər beynəlxalq cinayət əməlləri hesab olunur. Bu əməllərin törədilməsində iştirak etmiş şəxslər, eləcə də onlarla əlbir olan və onlara kömək edənlər də fərdi qaydada məsuliyyət daşıyırlar.

Rəsmi Yerevan Azərbaycan ərazilərini işğal etməsi və bu ərazilərdəki hərbi mövcudluğuna görə məsuliyyəti təkzib etməklə yanaşı, hətta Xocalı qırğınının guya ki, Azərbaycanlılar tərəfindən öz vətəndaşlarına qarşı törədildiyini utanmadan iddia edir və bununla əlaqədar, Azərbaycan Respublikasının keçmiş prezidenti Ayaz Mütəllibovun Rusiya KİV-ə verdiyi müsahibəsinə istinad edir. A.Mütəllibov dəfələrlə ona edilən bu istinadların yalan və iftira olduğunu, Xocalı qətliamının ermənilər tərəfindən törədildiyini bəyan etmişdir.






Məlumdur ki, Ermənistan əvvəlki rəhbərliyinin bəzi nümayəndələri, digər çoxlu yüksək rütbəli siyasi və hərbi rəsmiləri və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin rəhbərləri ilə birlikdə, Azərbaycan torpaqlarının zəbt olunmasında və Xocalı da daxil olmaqla azərbaycanlı mülki şəxslərə və hərbçilərə qarşı zorakılıqda şəxsən iştirak ediblər.

Öz təqsirini utanmadan etiraf etmiş Ermənistanın o dövrdəki müdafiə naziri və sabiq prezidenti Serj Sarkisyan Britaniya jurnalisti Tomas de Vaala müsahibəsində deyib: "Xocalıdan qabaq azərbaycanlılar düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdırlar. Biz bu stereotipi sındırdıq" (Tomas de Vaal, Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında (Nyu-York və London, Nyu-York Universiteti Nəşriyyatı, 2003), səhifə 172)).

Danılmaz faktdır ki, bu gün ən qatı beynəlxalq cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər, soyqırımı və etnik təmizləmədə adı hallandırılan heç bir şəxsə onun indiki və ya əvvəlki hər hansı statusu immunitet verə bilməz.

Hazırda Ermənistanda öz xalqına qarşı müxtəlif cinayətlərin törədilməsi ittihamları ilə barələrində istintaq və məhkəmə prosesləri aparılan şəxslərin Azərbaycan xalqına qarşı ən ağır cinayətlərin törədilməsinə görə də məsuliyyətə cəlb edilməsi həm beynəlxalq ədalətin bərqərar olunması, həm də Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla danışıqlar vasitəsilə nizama salınmasına mühüm töhfə verə bilər.

Azərbaycan Respublikası əmindir ki, milli səviyyədə, eləcə də mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsi qarşısına çıxarılmasına xidmət edəcək".

# İlham Əliyev Türkiyə ilə Qoşulmama Hərəkatının münasibətlərində yeni səhifənin anonsunu verdi...

**"Keçən il Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışdır. Bu, Birləşmiş Millətlər Təşkilatından sonra dünya miqyasında ikinci böyük təsisatdır. Bu gün bu təsisatla Türkiyə arasındakı gələcək əlaqələr haqqında geniş fikir mübadiləsi aparılmışdır".**

*"Bu, bir sıra məsələlərin dialoq yolu ilə həllinə kömək edəcək"*

***Seyid Camal Əzimbəyli:** "Türkiyə kimi bir ölkənin Qoşulmama Hərəkatı ilə hansısa formada əməkdaşlıq etməsi beynəlxalq münasibətlər üçün faydalı olacaq"*



Bu sözləri fevralın 25-də sənədlərin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatında deyib.

Prezidentin sözlərinə görə, iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir: "Bu gün bir çox məsələlər geniş müzakirə olundu. Bir çox önəmli qərarlar qəbul edildi, önəmli sənədlər imzalandı. Biz siyasi əlaqələrimiz haqqında geniş fikir mübadiləsi apardıq və bir daha gördük ki, bu əlaqələr iki xalqın iradəsini əks etdirir. Biz bütün beynəlxalq təşkilatlar çərçivəsində vahid mövqedən çıxış edirik. Bir-birimizə arxayıq, bir-birimizə dayağıq. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlarda biz fəal işbirliyi apararaq bir-birimizin gücünü artırırıq".

O da məlumdur ki, Qoşulmama Hərəkatında hərbi bloklarda təmsil olunmayan ölkələr iştirak edirlər. Türkiyə NATO blokunun üzvü olduğuna görə sözügedən hərəkatda təmsil olunmur. Ancaq Azərbaycan vasitəsilə Qoşulmama Hərəkatı ilə Türkiyə arasında müəyyən əlaqələrin qurulması beynəlxalq münasibətlərə töhfə verə bilər. Ümumilikdə, sözügedən əlaqələrin qurulması dünyadakı təhlükəsizliyə nə verəcək?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Türkiyə ilə Qoşulmama Hərəkatı arasında əlaqələrin qurulması beynəlxalq təhlükəsizliyin gücləndirilməsi üçün faydalı olacaq: "Hesab edirəm ki, Azərbaycan hərəkata sədrlik etdiyi üçün buna nail ola bilər. Türkiyə kimi bir ölkənin Qoşulmama Hərəkatı ilə hansısa formada əməkdaşlıq etməsi beynəlxalq münasibətlər üçün faydalı olacaq. Ona görə ki, Türkiyə NATO ölkəsi olmaqla yanaşı, böyük geosiyasi çəkiyə malikdir. Bir sıra parametrlərə görə üstün çəkiyə malikdir və dünyada söz sahibi olan ölkələrdən biridir. İslam dünyasında Türkiyənin özünəməxsus çəkisi var.

**Bütün bunlardan çıxış edərək hesab edirəm ki, bu yöndə əlaqələrin qurulması dünyada təhlükəsizliyin qorunmasına müsbət təsir edəcək. Bu, bir sıra məsələlərin dialoq yolu ilə həllinə kömək edəcək. Ona görə də mən bunun perspektivini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu istiqamətdə aparılan siyasət öz səmərəsini verəcək".**

***Vidadi ORDAHALLI***

# Naxçıvanla bağlı məkrli erməni planlarına yeni zərbə - Naxçıvan-Türkiyə dəmir yolu və qaz kəməri...

**Məlum olduğu kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfəri zamanı Qars-Naxçıvan dəmir yolunun tikintisi barədə sənəd imzalanıb. Bu barədə mətbuata birgə açıqlama zamanı Prezident İlham Əliyev bildirib ki, Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisi Naxçıvanın inkişafını artıracaq.**

***Fikrət Yusifov:** "Bu layihənin həyata keçirilməsi Naxçıvanın ixrac imkanlarını artıracaq"*




Qeyd edək ki, "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur nazirinin müavini Adil Karaismailoğlu imzalayıblar.

Mətbuat konfransında Prezident R.T.Ərdoğan bildirib ki, Türkiyədən Naxçıvana təbii qaz kəməri çəkiləcək.

Bütövlükdə, sözügedən dəmir yolunun çəkilməsi Naxçıvanın enerji və nəqliyyat blokadasının tamamilə yarılması, eləcə də alternativ imkanların tam hərəkətə gətirilməsi deməkdir. Bu faktdır ki, Naxçıvanın son illərdəki sosial-iqtisadi inkişafı, sahibkarlığın dəstəklənməsi, müasir və iri sənaye komplekslərinin, ailə təsərrüfatlarının yaradılması, əsasən yerli xammala əsaslanan müəssisələrin qurulması məhsul istehsalını xeyli artırıb. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq demək olar ki, 2003-cü ildə muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, hazırda bu göstərici 7 dəfədən çox artaraq 500-ə çatıb. İndi Naxçıvanda yüzlərlə növdə məhsul istehsal edilsə də, bu məhsulların xarici bazarlara çıxışı məhdud çərçivədədir. Buna isə əsas səbəb Naxçıvanın ən ucuz nəqliyyat vasitəsi hesab edilən beynəlxalq dəmir yollarına çıxışının 30 ildən artıqdır ki, olmamasıdır. Sözügedən dəmir yolu çəkiləndən sonra həmin problem öz həllini tapacaq.

Maraqlıdır, bəs ekspertlər çəkiləcək Qars-Naxçıvan dəmir yolunun əhəmiyyətini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, Türkiyədən Naxçıvana dəmir yolunun və qaz kəmərinin çəkilməsi çox böyük əhəmiyyətə malikdir: "Əvvəla Azərbaycanla Türkiyə arasında bütün səviyyələrdə olan əlaqələr davamlı genişlənir. Münasibətlərin bu şəkildə dərinləşməsi hər iki ölkənin maraqlarına cavab verir. Türkiyə bizə, sadəcə, dost ölkə deyil. Vaxtilə Ulu Öndər Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlət qədər bir-birimizə yaxın olan qardaş ölkələrik. İki ölkə arasında bu qədər yaxınlıq özünü getdikcə genişlənən iqtisadi əlaqələrdə də göstərir. Müstəqillik illərində Azərbaycan ən çox xarici sərmayəni məhz Türkiyəyə yatırıb. Türkiyədən olan investorlar da, öz növbəsində, Azərbaycanın müxtəlif bölgələrində kifayət qədər ciddi yatırımlar ediblər. Hər iki tərəfin bu yöndəki addımları günü-gündən daha da genişlənir. Bakı-Tiflis-Qars dəmir yolunun Naxçıvana qədər uzanması çox önəmli qərardır. Bu, erməni təcavüzü nəticəsində artıq illərdir blokada həyatı yaşayan Naxçıvanın sözügedən durumdan əsaslı şəkildə çıxması üçün bir imkan yaradacaq. Bu layihənin həyata keçirilməsi Naxçıvanın ixrac imkanlarını artıracaq. Naxçıvanı bölgənin mühüm bir tranzit mərkəzinə çevirəcək. Bu layihə Naxçıvanı Avropa və digər ölkələrlə birləşdirəcək. Sözügedən layihənin həyata keçirilməsi ilə Naxçıvanın ixrac potensialı xeyli artacaq. Naxçıvan məhsullarının bir sıra ölkələrə birbaşa çıxışı təmin ediləcək. Çəkiləcək yeni qaz kəmərinin də əhəmiyyətini yüksək qiymətləndirirəm".

*"...blokada həyatı yaşayan Naxçıvanın sözügedən durumdan əsaslı şəkildə çıxması..."*

***Vidadi ORDAHALLI***

# 2020-ci ildə Azərbaycanla Türkiyənin birgə hərbi təlimlərinin sayını artırmaq rəsmən bəyan edildi

**"Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin sayı artacaq". Bunu Prezident İlham Əliyev Bakıda türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla birgə mətbuata bəyanatlarla çıxışında deyib. Dövlət başçısı müdafiə sahəsində birgə gələcək işbirliyi haqqında fikir mübadiləsinin aparıldığını vurğulayıb:**

*"Nəzərə almaq lazımdır ki, Türkiyə neçə ildir antiterror əməliyyatları aparır"*

"Təkcə keçən il 13 birgə hərbi təlim keçirilib. Bu il isə hərbi təlimlərin sayı daha da çox olacaq".

Prezident onu da qeyd edib ki, Azərbaycan Türkiyədən müasir silahların alınmasını davam etdirəcək: "Bu gün biz birgə istehsalın təşkili haqqında da danışmışıq".

Ümumilikdə, Türkiyə Azərbaycan müstəqillik qazandıqdan sonra Silahlı Qüvvələrin formalaşmasına yardım göstərib. 1992-ci ildə Azərbaycan Ordusunun yaradılmasında və Qarabağ savaşında Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri bizə kömək ediblər. O zaman orduda kadr çatışmazlığı var idi. Sonrakı dövrdə də iki ölkə arasında hərbi-texniki əməkdaşlıq inkişaf etdi. Türkiyə Azərbaycanda kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşmasında böyük rol oynayıb. Bununla belə, hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər. Bütövlükdə, bu il iki ölkə arasında keçiriləcək hərbi təlimlərin sayının artırılmasının praktiki əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadənin sözlərinə görə, iki ölkə hərbçilərinin keçirdiyi birgə hərbi təlimlərin bir sıra üstün tərəfləri var: "Birincisi, Türkiyə Ordusu çox güclüdür. Nəzərə almaq lazımdır ki, Türkiyə neçə ildir antiterror əməliyyatları aparır. Belə ki, İraqda, Suriyada və ölkə daxilində neçə ildir bu əməliyyatları keçirir. Nəzərə alsaq ki, əsasən bu əməliyyatlar dağlıq ərazilərdə həyata keçirilir, o zaman, bu təlimlərin əhəmiyyəti bir qədər də artır. Çünki əldə etdikləri

***Azad İsazadə:*** *"Birgə təlimlər nə qədər çox keçirilsə, bu bir o qədər ordumuzun döyüş qabiliyyətini artıracaq"*



təcrübəni Azərbaycan Ordusu ilə keçirdikləri birgə təlimlərdə bölüşürlər. Bunun da ordumuzun döyüş qabiliyyətinin artmasına çox böyük müsbət təsiri var. O baxımdan birgə təlimlər nə qədər çox keçirilsə, bu bir o qədər ordumuzun döyüş qabiliyyətini artıracaq. İkincisi, Azərbaycan Türkiyə ilə müttəfiqdir. İki ölkə ordusunda bəzi fərqlər olduğu üçün, sözügedən təlimlər sayəsində birgə fəaliyyət qabiliyyəti yaranır.

Ordu strukturları bir qədər fərqli olduğuna görə birgə təlimlər əlavə təcrübə əldə etməyə imkan yaradır. Bu, gələcəkdə lazım olsa bir yerdə əməliyyat keçirmək bacarığı yaradacaq. Üçüncüsü, bunun hərbi-siyasi baxımdan əhəmiyyəti var. Ermənistana, İrana, Rusiyaya nümayiş etdiririk ki, iki qardaş ölkənin silahlı qüvvələri birgə təlim, əməliyyat keçirməyə hazırdır və bunu bacarırlar".

**Vidadi ORDAHALLI**

# XİN-də Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı rəsm sərgisi keçirilib

**30 ildən artıqdır ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü davam edir. Münaqişənin ən qanlı səhifələrindən biri isə Xocalı soyqırımıdır. "Trend" xəbər verir ki, bunu Xarici işlər nazirinin müavini Xələf Xələfov Xarici İşlər Nazirliyində Xocalı soyqırımının 28-ci ildönümü ilə bağlı rəsm sərgisində deyib.**




***Xələf Xələfov:*** *"Xocalıda törədilən cinayətlər tam sübuta yetirilib"*

Onun sözlərinə görə, Xocalı soyqırımı nəticəsində 613 nəfər dinc sakin xüsusi qəddarlıqla qətlə yetirilib:

"Xocalıda törədilmiş bu mənfur cinayət xüsusi niyyətlə həyata keçirilmiş və həmin niyyət əhalini məhz azərbaycanlı olduğuna görə kütləvi şəkildə qətlə yetirməkdən ibarət olmuşdur. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən aparılmış müvafiq istintaq nəticəsində Xocalıda mülki əhaliyə qarşı soyqırım cinayətinin törədildiyi tam sübuta yetirilmişdir. Bu gün Azərbaycan Respublikası Xocalıda törədilmiş soyqırımı ilə əlaqədar ədalət mühakiməsinin həyata keçirilməsi üçün milli və beynəlxalq səylərini davam etdirir.

Münaqişənin gedişində Ermənistan tərəfindən törədilmiş beynəlxalq cinayətlər həm dövlət, həm də fərdi səviyyələrdə məsuliyyət doğurur.

Ermənistan ölkəmizə qarşı təcavüz, eləcə də Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının pozulmasına görə dövlət səviyyəsində məsuliyyət daşıyır. Bu məsuliyyətə görə dünya birliyi Ermənistanı hüquqazidd əməllərini dayandırmağa, işğal edilmiş əraziləri qeyd-şərtsiz azad etməyə, münaqişənin ağır nəticələrini və vurulmuş ziyanı aradan qaldırmağa vadar etməlidir.

Bununla yanaşı, Xocalıda törədilmiş məlum cinayət əməlləri həmçinin onları törətmiş şəxslərin fərdi məsuliyyətini doğurur. Qeyd olunmalıdır ki, Ermənistanın bir çox yüksək vəzifəli şəxsləri və hərbi qulluqçuları, eləcə də Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qanunsuz rejimin rəhbərləri Azərbaycan ərazilərinin işğalında və Azərbaycanlı mülki şəxslərə qarşı cinayətlərin törədilməsində şəxsən iştirak etmişlər.

Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması istiqamətində, o cümlədən də "Xocalıya ədalət!" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu cinayətlə bağlı müvafiq qərarlar qəbul edilmişdir. Meksika, Pakistan, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, İndoneziya, Peru, Panama, İordaniya, Sudan, Sloveniya, Honduras, Qvatemala, Cibuti, Paraqvay və Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanlarında Xocalı soyqırımını qınayan rəsmi sənədlər qəbul olunmuşdur.

Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətli ilə dərin iz qoymuş Xatın, Holokost, Ruanda və Srebrenitsa soyqırımları kimi ağır faciələrlə bir sırada dayanır. Həmin soyqırımlara münasibətdə dünya birliyinin səyləri nəticəsində hüquqi mexanizmlər vasitəsilə qiymət verilmiş, cinayət törətmiş şəxslər müvafiq tribunallar qarşısında mühakimə olunmuşlar.

Lakin Xocalı soyqırımına bu günə qədər dünya birliyi tərəfindən tutarlı hüquqi qiymət verilməmişdir. Təəssüf ki, bu gün soyqırım cinayətinin aid olduğu universal yurisdiksiyanın tətbiqində siyasi konyunkturalar üstünlük təşkil etməkdədir.

Xocalı soyqırımı ilə əlaqədar beynəlxalq ədalət mühakiməsinin həyata keçirilməsi, bu qanlı cinayəti törədən şəxslərə münasibətdə cinayət təqibinin davam etdirilməsi və onların məsuliyyətə cəlb edilərək beynəlxalq mexanizmlər vasitəsilə cəzalandırılması Azərbaycan xalqının mənəvi borcu və dövlətimizin qarşısında duran mühüm vəzifədir. Inanıram ki, Azərbaycan xalqının iradəsi ilə Xocalı soyqırımına münasibətdə ədalət zəfər çalacaqdır".

**Bu gün Avropada Azərbaycana marağın artan xətt üzrə inkişaf etməsi, yeni tərəfdaşlıq sazişlərinin imzalanması Ermənistanda ciddi narahatlıq predmetinə çevrilməkdədir. Burada hesab edilir ki, Azərbaycan təkcə Avropa yox, bütün Qərb dünyası ilə əməkdaşlığını sürətlə genişləndirməklə Ermənistanı arxa plana atır.**

# Azərbaycanın Avropada mövqelərinin güclənməsi ermənilərin narahatlığını artırdı...

Onu da qeyd edək ki, erməni tərəfinin narahatlığı Azərbaycan dövlət başçısının İtaliya səfərindən sonra özünü daha qabarıq şəkildə büruzə verməyə başlayıb.

Hazırda Cənubi Qafqaz regionunda Azərbaycan yeganə ölkədir ki, İtaliya ilə siyasi və iqtisadi dialoq ən yüksək səviyyədədir. Təbii ki, yüksək siyasi dialoq hazırkı dövrlə yanaşı, gələcək illərdə də əlaqələrin şaxələnməsinə, beynəlxalq əhəmiyyətli məsələlərdə səmimi tərəfdaşlığa xidmət edir. İtaliya indi Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. Digər tərəfdən, üç Avropa nəhəngindən biri kimi qitənin siyasi gündəmini müəyyənləşdirən gücə malik İtaliya kimi etibarlı və strateji tərəfdaşla münasibətləri inkişaf etdirmək, dialoq qurmaq ölkəmizin Avropada nüfuzunun, strateji rolunun artmasında da mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, prezidentin məlum səfəri zamanı siyasi, müdafiə, iqtisadi-ticarət, kənd təsərrüfatı, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəni, elmi, turizm, idman sahələrinin əməkdaşlığına dair 28 sənəd imzalanıb.



Qeyd edək ki, İlham Əliyevin İtaliyaya səfəri çərçivəsində imzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" müstəsna əhəmiyyət daşıyır. Sənəd çoxölçülü, çoxşaxəli, hərtərəfli əməkdaşlığın daha da gücləndirilməsi üçün konkret istiqamətləri ehtiva edir. Bunlar həm də onu göstərir ki, İtaliya - Azərbaycan tərəfdaşlığı ancaq ticarət, turizm, investisiya, kənd təsərrüfatı, hərbi, eləcə də neft və qaz sahəsində məhdudlaşmır. 2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan olunmasını da mədəni əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi xüsusi olaraq vurğulamaq olar. Beləliklə, Azərbaycan-İtaliya münasibətlərinin dinamik inkişafı göz önündədir. Hər iki dövlət yaxın gələcəkdə geoiqtisadi mənzərəni dəyişəcək birgə layihələrin üzərində çalışır. TAP layihəsi üzrə Azərbaycan və İtaliya bundan sonra onilliklər ərzində enerji sahəsində etibarlı tərəfdaşlar kimi birgə fəaliyyət göstərəcəklər. İtaliya səfəri Azərbaycanın beynəlxalq aləmdə etibarlı və strateji partnyor kimi tanınmasının daha bir nümayişi oldu. Səfər çərçivəsində imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar iki dövlət arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi üçün möhkəm zəmin yaratmış oldu.

O da mühüm faktdır ki, səfər çərçivəsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşü də Azərbaycanın dünyada tolerantlıq ənənələrinə, multikultural dəyərlərinə görə nümunəvi bir ölkə olduğuna daha bir nümunə oldu. Xatırladaq ki, görüşdə Papa Fransisk xüsusilə ictimai-siyasi sabitliyin hökm sürdüyü Azərbaycanda dini icmalar arasındakı tolerant münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib, ölkəmizdə həyata keçirilən daxili, xarici siyasəti yüksək dəyərləndirib. İtaliyaya rəsmi səfər zamanı mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Mehriban Əliyevanın Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına layiq görülməsi də böyük əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd olunduğu kimi, bütün bunlar Ermənistanda indi böyük narahatlıq doğurur. Hər halda, erməni politoloq Qrant Məlik-Şahnazaryanın açıqlamaları da bunu aydın göstərir. Bu xüsusda o qeyd edir: "Roma Papası Fransisk tərəfindən Azərbaycan prezidenti və onun xanımının nümayişkaranə şəkildə isti qəbulu, eləcə də Mehriban Əliyevanı Papa Cəngavər Ordeninin ən ali dərəcəsi olan IX Piy Ordeninin Böyük Xaçı ilə mükafatlandırmaq faktı Ermənistan hakimiyyəti tərəfindən "uğurla" görməzdən gəlindi. "Vatikan zirzəmilərində" Mikael Minasyanı axtaran Nikol Paşinyandan fərqli olaraq, İlham Əliyev Vatikanda hansı real hədəflərə sahib olduğunu bilir. İki gün ümid edərək səbrlə gözlədim ki, bununla bağlı şəbəkədə ortaya çıxan materiallar hakimiyyətinin ləyaqətinə bəlkə təsir edər. Əbəs yerə. Bu insanların ləyaqəti yoxdur.

Nə şəxsi, nə də dövləti. Və bu, dövlətin sonudur. Azərbaycanın belə bir dövlət üzərində Qarabağ məsələsində də qələbə çalması isə, sadəcə, zaman məsələsidir". İtaliya Senatının üzvü Cianluka Ferraranın açıqlamaları da erməni tərəfinin narahatlığının əslində əbəs olmadığını göstərir. O bildirir ki, Azərbaycanla İtaliya arasında yaxşı münasibətlər və bunun daha da genişləməsi üçün əla potensial var: **"İki ölkə arasında iqtisadi-ticarət münasibətləri ilə yanaşı, mədəni əlaqələrin, eləcə də xalqlar arasında ünsiyyətin inkişafı çox əhəmiyyətlidir. Biz dəfələrlə ali səviyyədə, parlament iclaslarında bunu ifadə etmişik". Dağlıq Qarabağ münaqişəsinə toxunan italiyalı senatoru qeyd edib ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünün bərpasını, bu istiqamətdə ATƏT Minsk Qrupunun fəaliyyətini tam dəstəkləyir.**

***Tahir TAĞIYEV***

# Prezident Əliyev Ərdoğana bütün regional məsələlərdə Azərbaycan dövləti və xalqının dəstəyini vəd etdi

**Prezident İlham Əliyev fevralın 25-də Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra mətbuata bəyanatla çıxışında deyib ki, Azərbaycan bütün regional məsələlərdə Türkiyəyə dəstək verməyə hazırdır: "Bu gün bir çox məsələlər geniş müzakirə olundu.**

Bir çox önəmli qərarlar qəbul edildi, önəmli sənədlər imzalandı. Biz siyasi əlaqələrimiz haqqında geniş fikir mübadiləsi apardıq və bir daha gördük ki, bu əlaqələr iki xalqın iradəsini əks etdirir. Biz bütün beynəlxalq təşkilatlar çərçivəsində vahid mövqedən çıxış edirik. Bir-birimizə arxayıq, bir-birimizə dayağıq. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlarda biz fəal işbirliyi apararaq bir-birimizin gücünü artırırıq.

Keçən il Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışdır. Bu, Birləşmiş Millətlər Təşkilatından sonra dünya miqyasında ikinci böyük təsisatdır. Bu gün bu təsisatla Türkiyə arasındakı gələcək əlaqələr haqqında geniş fikir mübadiləsi aparılmışdır.

Təbii ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Mən bir daha əziz qardaşıma Türkiyənin Azərbaycanın haqq işinə daim dəstək göstərdiyinə görə təşəkkürümü bildirdim. Bütün beynəlxalq arenalarda Türkiyə hər zaman Azərbaycanın, Azərbaycan xalqının yanındadır. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin həlli üçün əsas maneədir. Ermənistan rəhbərliyinin çox ziddiyyətli və bir-birini inkar edən bəyanatları danışıqlar prosesinə böyük zərbədir. Onlar gah deyirlər ki, Dağlıq Qarabağ Ermənistandır, gah deyirlər ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Belə çıxır ki, onlar özləri də bilmirlər Dağlıq Qarabağ nədir? Bilmirlərsə, biz deyə bilərik: Dağlıq Qarabağ Azərbaycandır. Bunu biz deyirik, bunu bütün dünya deyir. Bütün dünya ölkələri Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və heç bir ölkə Dağlıq Qarabağ adlı qanunsuz qurumu tanımır. Əlbəttə ki, münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı çərçivəsində öz həllini tapmalıdır.

Türkiyə dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkədir. Buna görə bir daha təşəkkürümü bildirirəm. Öz növbəmdə bildirməliyəm ki, bütün məsələlərdə, beynəlxalq arenalarda Azərbaycan daim Türkiyənin haqq işini dəstəkləyir. Elə bir məsələ olmayıb və əminəm olmayacaq ki, Azərbaycan öz dəstəyini Türkiyəyə göstərməsin. Hazırda bölgədə gedən bütün proseslərdə, birmənalı şəkildə, Azərbaycan dövləti və Azərbaycan xalqı Türkiyə dövlətinin və xalqının yanındadır. Bizim birliyimiz əbədidir və təbii ki, biz öz gələcəyimizi bu möhkəm təməl üzərində qururuq. Ona görə Strateji Əməkdaşlıq Şurasının bugünkü 8-ci toplantısı xüsusi əhəmiyyətə malik olan bir məsələdir. Çünki dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr bu gün öz gələcək işbirliyi, əməkdaşlığı haqqında çox ciddi qərarlar qəbul etmişlər".

***Qabil Hüseynli:** "Türkiyə Asiya ilə Avropanı bir-birinə bağladığı kimi, Azərbaycan da Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətləri arasında körpüdür"*



Azərbaycanın Türkiyəyə təmənnasız dəstək ifadə etməsi nədən irəli gəlir?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanla Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir: "Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmiş, ulu öndər Heydər Əliyevin müdrikcəsinə dediyi kimi, "bir millət, iki dövlət" olmuşlar. Təsadüfi deyil ki, Türkiyə dövlətinin müdrik şəxsiyyəti Mustafa Kamal Atatürk Azərbaycanın kədərini özlərinin kədəri, sevincini isə öz sevincləri hesab edib. Türk dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşlar: Türkiyə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır. Onu da qeyd edək ki, Türkiyə ilə Azərbaycan arasındakı sıx əməkdaşlıq, qardaşlıq əlaqələri türkdilli ölkələr arasındakı münasibətlərə də öz təsirini göstərir. Türkiyə ilə Azərbaycan arasında əlaqələr bütün səviyyələrdə ən yüksək həddə inkişaf edib. İki dövlət arasında bu müddətdə çox sayda saziş imzalanıb, idxal-ixrac əməliyyatları gündən-günə genişlənir. Türkiyə və Azərbaycan çox vacib, strateji mövqedə yerləşir.

Türkiyə Asiya ilə Avropanı bir-birinə bağladığı kimi, Azərbaycan da Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətləri arasında körpüdür. Bundan əlavə, Azərbaycanın yeraltı ehtiyatlarla zəngin olması faktı onun Türkiyə üçün əhəmiyyətini artırır. Türkiyə və Azərbaycan eyni soy və irqdən gəldikləri üçün hərbi, iqtisadi, sosial və mədəni baxımdan eyni cizgiləri paylaşırlar. Ataların bir deyimi var: "Birlikdən güc doğar". Bu deyim sanki iki qardaş ölkə üçündür. Bu baxımdan da Azərbaycanın təklif etdiyi dəstək yuxarıda sadalanan amillərdən irəli gəlir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan dünyanın böyük 7-ləri ilə çoxölçülü strategiyaya başladı - İtaliya ilk ölkə...

**Azərbaycanın dünyanın müxtəlif dövlətləri ilə qurduğu ikitərəfli əlaqələr, mehriban dostluq və əməkdaşlıq münasibətləri ildən-ilə genişlənərək məzmunca yeni keyfiyyət mərhələsinə qədəm qoyur. Diqqəti çəkən əsas reallıq odur ki, Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması bütün dünyada etiraf edilir.**

Prezident İlham Əliyevlə görüşən hər bir dövlət və hökumət başçısı, xarici ölkələrin parlament nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri Cənubi Qafqazın əsas söz sahibi olan Azərbaycanla əməkdaşlığa böyük önəm verirlər. Çünki hər biri Azərbaycanın etibarlı tərəfdaş olduğunu, dünyada hökm sürən qlobal problemlərin həllinə böyük töhfələr verdiyini görür və qəbul edir. Bu isə ölkəmizin dünya birliyində böyük nüfuz qazanmasına əlverişli zəmin yaradır. Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri bunu bir daha təsdiqlədi. İki ölkə arasında münasibətlərin inkişaf dinamikası yüksəkdir və müxtəlif sahələr üzrə əməkdaşlıq əlaqələri daim genişlənir. Azərbaycanla İtaliya arasındakı yüksək siyasi dialoq həm indi, həm də gələcək illərdə əlaqələrin daha da şaxələnməsinə, beynəlxalq əhəmiyyətli məsələlərdə səmimi tərəfdaşlığa xidmət edəcək. Hazırda ölkəmizdə



çoxsaylı italyan şirkətləri fəaliyyət göstərir. Azərbaycanda müxtəlif sahələrdə 113 İtaliya şirkəti qeydiyyata alınıb. İtaliya şirkətləri Azərbaycanın xarici ölkələrdə həyata keçirdiyi layihələrdə, məsələn Cənub Qaz Dəhlizi layihəsində iştirak edir. Bu layihədə İtaliya şirkətlərinin 7 milyard avrodan çox payı var. Səfər zamanı iki ölkə arasında 17 müqavilə və "Azərbaycan

***Məhəmməd Əsədullazadə:** "İtaliya Avroittifaqda öz siyasi çəkisi ilə Azərbaycanın maraqlarının qorunmasında dəstəyini əsirgəməyəcək"*

Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" imzalandı. Bütövlükdə, İtaliya Avroittifaq miqyasında Azırbaycanın ən böyük siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. Digər tərəfdən, İtaliya böyük 7-lərdən ilk və hələlik yeganə ölkədir ki, Azərbaycanla çoxölçülü strateji tərəfdaşlıq sənədi imzalayıb. Bu iki faktorun Azərbaycan üçün əhəmiyyəti nədir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı:"İtaliya ilə Azərbaycan arasında sıx siyasi-iqtisadi əməkdaşlıq bu ölkələr arasında gələcək perspektiv baxımından çox önəmlidir. İki ölkə arasında əlaqələr daha dinamik mərhələyə keçəcək. Çünki İtaliya bundan sonra enerji və hərbi-texniki sahədə Azərbaycanla əlaqələrin inkişafı üçün yeni müqavilələrə imza atdı. Bu da yeni imkanlar açır. Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri iki dövlət arasında yeni siyasi-iqtisadi və hərbi-texniki mərhələnin başlanğıcıdır. Avropa İttifaqının üzvü kimi rəsmi Roma Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcək. Bununla bağlı siyasi dəstəyini əsirgəməyəcək. Həmçinin NATO çətiri altında hərbi-texniki əməkdaşlıqda yeni səhifə açılacaq. Bu ölkə ilə strateji əməkdaşlıq Avropanın digər ölkələrindən daha dərin tarixə malikdir. Bunu ölkə başçısı İlham Əliyev xüsusi qeyd edib.

Hesab edirəm, İtaliya Avroittifaqda öz siyasi çəkisi ilə Azərbaycanın maraqlarının qorunmasında dəstəyini əsirgəməyəcək. TAP qaz kəmərinin çəkilməsində İtaliya Azərbaycana böyük dəstək verib. Bu onu göstərir ki, tərəflər hazırkı əlaqələrin strateji əməkdaşlıq səviyyəsinə qaldırılması istiqamətində bütün zəruri addımları atacaq. İmzalanan müqavilələr artıq Ermənistanda həyəcan yaradıb. Görünən odur ki, strateji əməkdaşlıq artıq iki ölkənin prioritet sahəsi olacaq. Bütün bunların ölkəmiz üçün əhəmiyyəti çox böyükdür".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycanla Türkiyənin vektorları Ermənistan istiqamətində düzgün inkişaf edir...

*Azərbaycanın Türkiyədən alacağı yeni silahlar düşməni indidən lərzəyə salır*

**Azərbaycan və Türkiyə arasında dinamik inkişaf edən münasibətlər, qardaş ölkənin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizə verdiyi tam dəstək Ermənistanda, həmişəki kimi, ciddi narahatlıqla qarşılanır.**

Qeyd edək ki, Türkiyə Qarabağ məsələsində Azərbaycana dəstəyi prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri fonunda bir daha ən yüksək səviyyədə ifadə etdi. Dövlət başçılarının mətbuata bəyanatlarla çıxışı zamanı Ərdoğan bildirdi: "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir. Dağlıq Qarabağ probleminin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll edilməsi ən böyük arzumuzdur. Azərbaycana bu haqlı mübarizəsində verdiyimiz dəstəyi bundan sonra da davam etdirəcəyik. Minsk Qrupunun bu məsələdə, təəssüf ki, səmimi davranmadığını da açıq şəkildə ifadə edirəm. Çünki təxminən 25 il vaxt itirilib. Nə üçün və nəyə görə heç bir nəticəyə nail olunmur? Təbii ki, bunun üzərində də dayanmaq lazımdır". Burada özünü göstərən mühüm məqamlardan biri də Azərbaycanın Türkiyədən yeni silahların alışını həyata keçirəcəyi ilə bağlı məlumatların açıqlanması oldu. Bu xüsusda Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Türkiyədən müasir silahların alınmasını davam etdirəcək: "Müdafiə sahəsində birgə gələcək işbirliyi haqqında fikir mübadiləsi aparıldı. Təkcə keçən il 13 birgə hərbi təlim keçirilmişdir. Bu il isə hərbi təlimlərin sayı daha da çox olacaq. Azərbaycan Türkiyədən müasir silahların alınmasını davam etdirəcək və bu gün biz birgə istehsalın təşkili haqqında da danışmışıq…Əminəm ki, biz bundan sonra da hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizin uğurlarına sevinəcəyik. Ağır günlərdə, Allah eləməsin, amma əgər olarsa, hər zaman bir-birimizin yanında olacağıq".

Xatırladaq ki, Azərbaycanın silah idxal etdiyi ölkələr sıasında əsas yerlərdən birini məhz Türkiyə tutur. Azərbaycanla Türkiyə arasında 2020-ci il üçün hərbi fəaliyyət planı isə artıq ötən ilin sonlarında imzalanıb. Bu məsələ Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq iclasında müzakirə olunub. Burada Azərbaycanla Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti, inkişaf perspektivləri, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müəyyən olunub, eləcə də 2020-ci il üçün fəaliyyət planı razılaşdırılıb.

Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq yüksək səviyyədədir. Hələ bir neçə il öncə ölkələrimiz arasında "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə təsdiq edilib. Bununla hərbi əməkdaşlıq daha da inkişaf edib. Tərəflər qonşu və qardaş dövlətlər olaraq bir-birinin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin olunmasında və qorunmasında sıx əməkdaşlıq edir. Əməkdaşlıq çərçivəsində hərbçilərimiz Türkiyədə təlim və kurslarda iştirak edirlər. Bundan əlavə, əməkdaşlıq çərçivəsində ölkəmiz Türkiyədən ən müasir silah və texnikaları alır. Məsələn, Azərbaycan Türkiyədən "T-122 Sakarya" reaktiv atəş sistemləri idxal edib. Bundan əlavə, Azərbaycan sözügedən artilleriya sistemlərində tətbiq olunan TR-122 raketini də Türkiyədən alıb. Ermənistanda Azərbaycanın belə silaha malik olması dərin böyük təşvişlə qarşılanıb. "T-122 Sakarya" reaktiv atəş sistemi və onun raketləri ROKETSAN şirkəti tərəfindən istehsal olunur. Bu raketlərin atış mənzili 40 kilometrdir. Bu isə Azərbaycan ordusunun mövcud 9K51 "Qrad" qurğularında tətbiq olunan raketlərin atış məsafəsindən təxminən 2 dəfə çoxdur. Ordumuzda, həmçinin, ROKETSAN şirkətinin istehsalı olan TR-107 artırılmış mənzilli raketlərdən də istifadə olunur. Son illərdə Türkiyədən aldığımız dağıdıcı silahlardan biri də 105-130 km-lik TR-300 "Qasırğa" raketləridir. "KamAZ" avtomaşınlarının şassisi üzərində yerləşən Azərbaycan "Qasırğa"ları universal dizayna malikdir. Bu raketlərin atış mənzili 130 kilometr məsafədir. GPS və İNS naviqasiyasına malik bu raketin dəqiqliyi maksimum məsafədə 30 metr təşkil edir. "Qasırğa" ilə nəinki İrəvanı, Ermənistanın dərinliyindəki istənilən təhlükə yaradan hədəfi məhv etmək olar. Bununla, həmçinin, Naxçıvandan Qarabağdakı erməni hədəflərinə də zərbələr endirmək mümkündür.

Azərbaycan Türkiyənin "Harp Arge" şirkətindən pilotsuz uçuş aparatlarını məhv etmək üçün nəzərdə tutulan "Drone Killer" silah sistemi alıb. Bu silah ilk dəfə Azərbaycana ixrac edilib. Silah hücum məqsədilə istifadə ediləbiləcək pilotsuz uçuş aparatlarına qarşı mübarizə aparır. Sistem Azərbaycan ordusu tərəfindən uğurla sınaqdan keçirilib. Bundan başqa, Azərbaycan qardaş ölkədən son dövrlərdə 35 ədəd "Kobra", 37 ədəd "Shorland", 30 ədəd "T-107 ÇNRA", 40 ədəd "T-122/300 ÇNRA", 20 ədəd "T-300 ÇNRA", 108 ədəd "TRG-300 Kaplan" raket, 25 ədəd SOM-B1 raketi alıb. Qeyd edək ki, Azərbaycanın SOM-B1 qanadlı raketləri ilə silahlanması ona Qarabağda erməni qüvvələrinin infrastrukturuna yüzlərlə kilometr məsafədən dəqiq zərbə endirməyə imkan verir. Özü də bu raketlərə qarşı mübarizə aparmaq praktiki olaraq mümkün deyil. Çünki mürəkkəb trayektoriya ilə hərəkət edən qanadlı raketlərə qarşı mübarizə aparmaq üçün hava hücumundan müdafiə sistemlərinin çoxpilləli radarlar şəbəkəsi qurulmalıdır. Üstəlik, belə raketləri izləmək və neytrallaşdırmaq üçün raket əleyhinə müasir silahlar, yüksək peşəkarlığa malik heyət olmalıdır. Ermənistan isə bütün bunlardan məhrumdur. Qeyd edilən qanadlı raketlərin çəkisi 600 kiloqrama yaxın, atəş mənzili 250 kilometrdir. Hazırda Türkiyənin Hərbi Hava Qüvvələri həmin raketləri özünün F-16C və F-4 qırıcılarında yerləşdirib. Bu vaxta qədər ehtimal edilirdi ki, Azərbaycan Hərbi Hava Qüvvələri SOM raketlərini mövcud aviaplatformalarında, xüsusən modernləşdirilmiş MiQ-29 qırıcısında quraşdıracaq. Amma bunların İtaliyanın "Leonardo S.p.A" şirkətinin məhsulu olan "M-346" təyyarələrinə quraşdırılması gözlənilir. Bundan başqa, "M-346"nı yerüstü hədəflərin məhv edilməsi məqsədilə ağıllı bomba və idarəolunan raketlərlə də silahlandırmaq mümkündür. Belə ağıllı bomba və idarəolunan raketlərin yenə Türkiyədən alınması mümkün sayılır.

Ümumiyyətlə, ölkəmiz silah sistemlərinin önəmli hissələrini Türkiyədən almağa üstünlük verməyə başlayıb. Məhz bu fonda Azərbaycan Türkiyədən idxal olunan silah sayını artırıb. Yuxarıda qeyd olunduğu kimi, Türkiyədən yeni silahların alışı da diqqət mərkəzindədir. Məsələn, hərbi əməkdaşlığın dərinləşməsinə müvafiq olaraq, Azərbaycan qardaş ölkədən Ermənistanı qorxuya sala biləcək daha bir texnikanın alışını həyata keçirə bilər. Söhbət Türkiyənin müasir "Altay" tanklarından gedir. "Altay" Cənubi Koreyanın "K2" tankının müasirləşdirilmiş formasıdır. Tankda "Qara panter"in 60% -dək texnologiyalarından istifadə edilib. Digər tərəfdən, Azərbaycanın Türkiyədən "Anka" pilotsuz uçuş aparatının silahlı konfiqurasiyası olan "Anka-S" PUA-sını alması belə istisna olunmur. Qeyd edək ki, "Anka-S" PUA-nın silahlı testləri uğurlu keçirilib. Silah 200 kiloluq faydalı yüklə 24 saat uçuş həyata keçirir. Azərbaycan istəyəcəyi təqdirdə, türk tərəfinin onu tərəddüdsüz ölkəmizə satacağı isə şübhə doğurmur. Ölkəmiz Türkiyədən "T-129 ATAK" tipli hücum vertolyotu alınmasına da çox maraq göstərir. Xatırladaq ki, Türkiyə və İtaliyanın ortaq layihəsi olan "T-129 ATAK" hərbi helikopterlərinin sürəti saatda 300 kilometrə çatır, hər cür hava şəraitində, gecə və gündüz uçuş həyata keçirə bilir. Helikopter həm də Türkiyə istehsalı olan kompyuter sistemi ilə təchiz edilib. Helikopterin 42 fərqli avionika və silah sistemi Türkiyə şirkətləri tərəfindən istehsal olunur. Ekspertlər bildirir ki, "T-129 ATAK" döyüş helikopterlərinin alınması Azərbaycan hərb aviasiyasını daha güclü hala gətirəcək. Ümumiyyətlə, Azərbaycan aviasiyasının güclənməsində Türkiydən müvafiq hərbi texnika alınmasına daim xüsusi önəm verir. Qarşıdakı dövrdə Türkiyədən yeni hərbi texnikalar alınması artıq gündəmdədir. Elə Türkiyə tərəfi də Azərbaycanla hərbi əməkdaşlığa xüsusi önəm verdiyini açıq bəyan edir. Bütün bunlar hər iki ölkənin mövqelərinin daha güclü hala gəlməsini də təmin edir.

Türkiyənin aparıcı dron istehsalçısı "Baykar Makina"nın "Akıncı" adlı PUA-sı da ölkəmizin diqqət mərkəzindədir. "Baykar Makina" Türkiyə və İraqda bir neçə ildir ki, antiterror əməliyyatlarında, Egey dənizində və Suriyanın şimalında kəşfiyyat və nəzarət üçün aktiv istifadə olunan "TB Egekli" dronları da istehsal edir. Artıq məlumatlar səslənir ki, Azərbaycan yaxın tezlikdə Rusiyanın QLONASS-ı ilə idarə edilən Türkiyənin yeni pilotsuz döyüş aparatlarını ordusunun ixtiyarına verə bilər.

Bu isə Azərbaycanın hərbi hava sahəsində üstünlüyünü artırmaqla Ermənistana vurulacaq növbəti zərbə sayılır.

Ermənistanın "Politekonomia" araşdırma institutunun siyasi şərhçisi Yervand Bozoyan Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığı ölkəsi üçün ciddi problem adlandırır:"Son iki ilin inkişafları göstərir ki, azərbaycanlıların və türklərin vektorları Ermənistan istiqamətində düzgün, yəni bizim üçün arzuolunmaz istiqamətdə inkişaf edir. Bunun onların son məqsədinə çatmağa yetərli olub-olmayacağına gəlincə, bu artıq fərqli müzakirə mövzusudur. Amma 2016-cı ildəki kimi müharibə gözlənilmədən gələ bilər. Türkiyə də bu zaman bütün dəstəyi ilə Azərbaycanın yanında olacaq".

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistanın İsraildəki səfirliyi İrəvandan Təl-Əvivə köçdü - Azərbaycan - İsrail əməkdaşlığında nə dəyişə bilər...

**Hatəm Cabbarlı:** *"Ermənistanın İsraildə səfirlik açması Təl-Əvivin Bakı ilə münasibətlərinə təsir edə bilməyəcək"*

**Ermənistan İsraildə səfirlik açmaq istəyir. Bu barədə məlumatı İsrailin Moldova və Ermənistan üzrə akkreditə edilmiş səfiri Eliav Beroçerkovski bildirib: "Biz bu niyyəti alqışlayırıq və hesab edirik ki, belə addım ölkələrimiz arasındakı münasibətlərin inkişafına yeni təkan verəcək".**



Qeyd edək ki, Ermənistan Prezidentinin 25 fevral tarixli fərmanı ilə Armen Smbatyan həmin ölkənin İsraildəki səfiri təyin edilib. Buna qədər Ermənistanın İsraildəki səfirliyinin rezidensiyası İrəvanda olub. Bundan sonra isə səfirlik Təl-Əvivdə fəaliyyət göstərəcək. İsrailin isə Ermənistanda hələlik səfirlik açmaq fikri yoxdur.

İsrailin Xarici İşlər Nazirliyi Ermənistanın həmin ölkədə səfirlik açmaqla bağlı planını alqışlayıb. Bu barədə İsrailin Xarici İşlər Nazirliyi rəsmi saytında bəyanat verib. Bəyanatda deyilir: "Ölkənin Xarici İşlər Nazirliyi Ermənistanın burada səfirlik açmaq planını alqışlayır. Bu addım son illərdə sürətlə artmaqda olan əlaqələrin göstəricisidir. Səfirliyin açılması iki ölkə əlaqələrində yeni səhifələr açacaq. Biz əminik ki, bu, iki xalqın əlaqələrini, qarşılıqlı əməkdaşlığı bütün sahələrdə möhkəmləndirəcək".

Məlumdur ki, bəzi obyektiv səbəblərə görə Azərbaycanın İsraildə diplomatik missiyası fəaliyyət göstərmir. Ermənistanın həmin ölkədə səfirlik açması Azərbaycan-İsrail münasibətlərində nəyisə dəyişə bilərmi?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ötən ilin əvvəlindən başlayaraq Ermənistanın xarici siyasət kursunuda bir sıra ölkələrdə səfirlik açmaq prioritet elan olunub: "Ermənistan bu ilin əvvəlində İsraildə səfirlik açmağı əvvəlcədən planlaşdırırdı. Qeyd edək ki, İsrailin Ermənistanda səfiri yoxdur, həmin ölkənin Gürcüstandakı səfiri, eyni zamanda, Ermənistanda da akkreditə olunub. İki ölkə arasındakı əlaqələr İsrailin Gürcüstandakı səfirliyi vasitəsilə həyata keçirilir. Ermənistanın həmin ölkədə səfirlik açmağa tələsməsi onların yeni siyasət qurmaq istəmələri ilə əlaqəlidir. Yaxın Şərqdə ermənilər çox yaşayırlar. Həmin regionun ən qüdrətli ölkəsi İsraildir. Ermənistan orada səfirlik açmaqla, eyni zamanda, Yaxın Şərqdəki erməniləri yaxşı koordinasiya etməyi düşünür. Azərbaycanın İsraildə səfirliyinin olmamasına baxmayaraq, iki ölkə arasındakı münasibətlər çox yüksəkdir. İki ölkə arasında heç vaxt ciddi problem ortaya çıxmayıb. Azərbaycanın İsraildə bu günə qədər səfirlik açmamasının səbəbi İran amili ilə bağlıdır. Ölkəmiz düşünüb ki, bu, İranı qıcıqlandırar. Artıq mənə elə gəlir ki, bununla bağlı heç bir problem yoxdur. Hazırda bu məsələ gündəmə gətirilə bilər. Hətta İranın etirazı olsa da, onu haqsız saymaq olar. Çünki Ermənistanla onun münasibətləri inkişaf edə-edə İrəvan İsraildə səfirlik açır. Deməli, lazım gələndə İran qıcıqlanmaya da bilir.

Azərbaycan hökuməti İranla münasibətlərini daha soyuqqanlı, praqmatik əsaslara söykənərək aparmalı və İsraildə səfirliyimizin açılmasında maraqlı olmalıdır. İsrail Azərbaycan üçün çox lazımlı ölkədir. Ölkəmiz üçün belə bir addımın atılması heç bir risq tələb etmir. Etiraz edənlər üçün onlara təqdim etməyə əlimizdə ciddi faktlar var. Burada heç bir hüquqi maneə də yoxdur. Ehtimal edirəm ki, yaxın zamanlarda Azərbaycan İsraildə səfirliyini aça bilər. Hətta bu, olmasa belə, Ermənistanın İsraildə səfirlik açması Təl-Əvivin Bakı ilə münasibətlərinə təsir edə bilməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# İstanbulda Suriya üzrə dörd dövlətin zirvəsi baş tutmadı - son anda Putin...

**Elşən Mustafayev:** *"Rusiyanın digər iki ölkə ilə Suriyada ciddi kəsişən mövqeyi olmadığı üçün belə mənzərə yaranır və Putin çox adamın iştirakı ilə müzakirə aparmaq istəmir"*

**Almaniya Kansleri Angela Merkellə Fransa Prezidenti Emmanuel Makronun Rusiya Prezidenti Vladimir Putinlə İdlib mövzusunda telefon danışığı olub. Merkel və Makron Türkiyə, Rusiya, Fransa və Almaniya liderlərinin dördtərəfli görüşünü təklif ediblər.**

Sonra Türkiyə Prezidenti Ərdoğanın verdiyi açıqlamadan məlum oldu ki, Suriyadakı vəziyyəti müzakirə etmək üçün İstanbulda 4 tərəfli görüş planlayıblar: "Suriya hakimiyyəti İdlibdə mülki əhaliyə etdiyi zülmü dayandırmasa, biz oradan çəkilməyəcəyik.

Fransa Prezidenti Emmanuel Makron və Almaniya Kansleri Angela Merkelin Vladimir Putinə dördtərəfli görüşün martın 5-də İstanbulda keçirilməsini təklif ediblər. Putin onlara hələlik cavab verməyib. ...Putinlə telefon danışığımız olacaq. Telefon danışığının nəticəsindən asılı olaraq hansı addımları atacağımız müəyyənləşəcək".

Göründüyü kimi, Rusiya Prezidenti Suriya ilə bağlı müzakirələrin 4 tərəfli formatda aparılmasından maksimum yayınmağa çalışır. Bunun səbəbi nə ilə bağlıdır?

Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Putinin belə davranışı Suriyada hegemon mövqeyin sahibi olmağı nümayiş etdirməklə bağlıdır: "Bəli, əvvəl Putin belə formatda görüşün keçirilməsinə razılıq verməmişdi. Digər üç tərəf isə buna razı idi. Sonra Ərdoğan açıqladı ki, Putinlə görüş barədə razılığa gəliblər. Ancaq bilinmir bu müzakirə 4 tərəfli formatda aparılacaq, yoxsa Türkiyə ilə Rusiya arasında. Hazırkı məqamda Rusiya ilə Türkiyə arasında Suriya ilə bağlı məsələdə fikir ayrılığı mövcuddur. Rusiya ilə Türkiyə arasında prinsipial məsələlərə baxışda bir qədər fərqli yanaşmalar ortaya çıxıb ki, bu da hər iki dövlətin maraqları ilə əlaqəlidir. Ancaq bu o demək deyil ki, Rusiya və Türkiyə Suriyada bir-birinə hücum edəcək, müharibə aparacaq. Bu əsassız söhbətdir. Nə Türkiyə Rusiyaya hücum edəcək, nə də Rusiya Türkiyəyə. Sözsüz ki, ortalıqda problem var və o həll edilməlidir. Hər iki dövlət anlayır ki, indiki zamanda bir-birinin əksinə getmək onların ziyanınadır.



Rusiya və Türkiyə arasında münasibətləri pisləşdirən Liviya və Suriyada yaşanan hadisələrdir. Proseslərin gedişi göstərir ki, Rusiya və Türkiyə Suriya məsələsində yenidən ortaq məxrəci tapa biləcəklər. Putini yalnız bu məqam ciddi maraqlandırdığı üçün, məhz Ərdoğanla görüşə maraq göstərir. Lavrov da açıqlamasında bu görüşə böyük ümid bəslədiyini deyib. Bildirib ki, hazırda məsləhətləşmələrin növbəti seriyası hazırlanır.

Lavrov deyib ki, danışıqların nəticəsində orada terrorçuların ağalıq etmədiyi gerçək təhlükəsiz zona yaradılması üçün razılaşma əldə ediləcək. Rusiyalı nazir onu da bildirib ki, Moskva Vaşinqtonun rəsmi şəxslərinin terrorçularla dialoq imkanları barədə söylədiklərini yolverilməz hesab edir. Hesab edirəm ki, Rusiyanın digər iki ölkə ilə Suriyada ciddi kəsişən mövqeyi olmadığı üçün belə mənzərə yaranır və Putin çox adamın iştirakı ilə müzakirə aparmaq istəmir".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

**Azərbaycan torpaqları üzərində qurulan Ermənistan dövlətinin yarandığı gündən həyata keçirdiyi ilk siyasət yerli azərbaycanlıları doğma torpaqlarından qovmaq, yurdunu tərk etmək istəməyənləri isə qətlə yetirmək, məhv etmək olub. XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mahiyyətində onların bu torpaqların "tarixi sahibi" olduğu ideyasını gerçəkləşdirmək kimi məsələlər qarşıya qoyulub.**

## I yazı

Heç şübhəsiz ki, çürük "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyilə müxtəlif vaxtlarda Azərbaycan türklərinə qarşı dəhşətli terror və soyqırımı həyata keçiriblər.

Tarixçilər qeyd edirlər ki, erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında irəli sürülən "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətlərini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başladılar. Qeyd edək ki, daşnaklar 1905-1906-cı illərdə Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törədib, əhalini amansızlıqla qətlə yetirib, şəhər və kəndləri yandıraraq viran qoyublar.

Onu da vurğulayaq ki, hələ Ermənistan dövləti yaranmamışdan əvvəl erməni daşnakları tərəfindən 1917-ci ilin əvvəllərindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197 kənd, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılıb, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilib, yandırılaraq viran qoyulub.

Tarixçilər qeyd edirlər ki, erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və digər Azərbaycan ərazilərində 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilib. Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülüb. 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülüb və doğma torpağından didərgin salınıb.

Ermənilərin həyata keçirdikləri qətlləri Z.Kirokodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" adlı kitabında təsdiq edərək "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur" - deyə yazır.

1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilib, İrəvan quberniyasında 132 min azərbaycanlı qətlə yetirilib.

Bütövlükdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilib, bir milyondan çox əhali öz doğma torpaqlarından didərgin salınıb. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılıb, maddi mədəniyyət nümunələri məhv edilib. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılıb və ermənilərin törətdikləri cinayətlər araşdırılmağa başlanıb. Hökumətin qərarı ilə (1919 və 1920-ci illərdə martın 31-də Ümummilli Matəm Günü kimi qeyd edilib) mart ayının 31-nin Matəm Günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb oldu. Tarixçilər qeyd edirlər ki, 1918-ci ildə Azərbaycan torpaqlarında - keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı.

1919-cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürməyə başlayıb və bununla da Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edilib.

Qeyd edilənə görə, Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etməyə nail olublar.

Ermənistanın Azərbaycan xalqına qarşı soyqırım siyasəti XX əsrin sonlarında daha geniş miqyas alıb. Belə ki, Dağlıq Qarabağ və ətraf rayonları işğal edən Ermənistan silahlı qüvvələri minələrlə azərbaycanlını qətlə yetirib, soyqırımlar törədib. Tarixçilər təəssüflə yazırlar ki, hadisələrin başlanğıcında erməni separatçılarının qarşısının alınmaması vəziyyəti getgedə kəskinləşdirirdi. Nəticədə ermənilər Azərbaycan hökuməti tərəfindən nəzarət olunmayan vilayətdə Ermənistandan göndərilən silahlı dəstələr və hərbi texnikanın köməyilə azərbaycanlılara qarşı daha qanlı cinayətlər törətdilər ki, bu da münaqişənin böyüyüb irimiqyaslı müharibəyə çevrilməsinə səbəb oldu. 1991-ci ildən Qarabağın dağlıq hissəsində baş verən hadisələrin gərginliyi get-gedə artırdı. Artıq ictimai-siyasi vəziyyət böyük fəlakətin yaxınlaşmasından xəbər verirdi. 1991-ci ilin iyun-dekabr aylarında erməni silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əsgəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 12 nəfər öldürüldü, 15 nəfər isə yaralandı. Həmin ilin avqust və sentyabr aylarında Şuşa-Cəmilli, Ağdam-Xocavənd və Ağdam-Qaradağlı avtobuslarının erməni silahlı dəstələri tərəfindən atəşə tutulması nəticəsində 17 nəfər həlak oldu, 90 nəfərə qədər azərbaycanlı yaralandı.

1991-ci il oktyabrın sonunda və noyabr ayı ərzində Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən, Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Qaradağlı, Kərkicahan və s. bu kimi digər strateji əhəmiyyətə malik kəndlərimiz ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi.

Tarixçilər yazırlar ki, ümumiyyətlə, 1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə İttifaqın hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeridib, nəticədə dinc sakinlər qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, talan edilib və yandırılıb. Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət bu məqsədlə Dağlıq Qarabağdan 50 min azərbaycanlını soyqırıma və təcavüzə məruz qoyub didərgin salıb. Bu illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən törədilmiş 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşə tutma halları qeydə alınıb ki, bunların da nəticəsində 514 nəfər həlak olub, 1318 nəfər yaralanıb.

Tarixçilərin qeyd etdiyinə görə, eyni zamanda, bu dövrdə etnik təmizləmə nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 250 min nəfərə qədər azərbaycanlı təcavüzə məruz qalaraq zorakılıqla doğma yurdlarından qovuldu. Nəticədə Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyası həyata keçirilərək 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti alıb, on minlərlə ailənin əmlakı qarət olunub.

1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. Belə ki, fevral ayının 12-də Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu. Fevralın 13-dən 17-dək Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücum zamanı 118 nəfər (uşaq, qadın, qoca) əsir götürülüb, 33 nəfər ermənilər tərəfindən güllələnib, eyni zamanda, öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək basdırmışlar. Əsir götürülənlərdən 68 nəfəri amansızlıqla öldürülüb, 50 nəfəri isə böyük çətinliklə əsirlikdən azad edilib. Azad olunanların 18 nəfəri aldıqları sağalmaz yaralardan sonra vəfat ediblər. Əsirlikdə saxlananlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin zorla çıxarılması, ac-susuz saxlanması, işgəncə verilərək öldürülməsi insanlığa qarşı törədilmiş ən ağır cinayət hadisəsi idi.

Ermənistan silahlı qüvvələrinin törətdikləri cinayətlər haqqında başqa faktlar da təqdim edəcəyik.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Suriyada Rusiya və Türkiyə arasında münasibətlərin bundan sonra hansı istiqamətdə inkişaf edəcəyi ətrafında indi ən fərqli fikirlər səslənir. Belə görünür ki, tərəflər danışıqlar masası arxasında razılığa gəlməsə, aralarında hərbi toqquşma risqi daha da böyüyəcək.**

# İdlib dünya müharibəsi ərəfəsində - Rusiya, İran, Suriya bir, NATO və Türkiyə digər tərəfdə...

Özü də nəzərə almaq lazımdır ki, hadisələrin elə qarşıdurma müstəvisində davam etməsini istəyən kənar qüvvələr də kifayət qədərdir. ABŞ-ın Avropa Qüvvələri komandanı Tod Voltersin açıqlamaları da bunu təsdiq edir.

Tod Volters bildirir ki, Ankara və Vaşinqton Rusiyaya müqavimət göstərmək məqsədilə əməkdaşlığı gücləndirməli və NATO daxilində fəaliyyətlərini təsirli hala gətirməlidir: "Türkiyənin Rusiyaya müqavimətdə rolu böyükdür. Hər iki ölkə Qara dəniz regionunu özlərinin nüfuz dairəsi olaraq dəyərləndirir. Liviyada atışmalar davam edir və İdlibdə münaqişə vəziyyətindədirlər. Suriyada Türkiyəyə Rusiya müqavimətini qırmaq üçün yardımlar artmalıdır". Türk politoloq Taha Dağlı da bildirir ki, danışıqlar alınmasa, Rusiya və Türkiyə arasında qarşıdurma təhlükəli həddə qədər böyüyə bilər. O vurğulayır ki, Rusiya Əsəd rejiminə verdiyi dəstəyi dayandırmayacaq, eyni zamanda Türkiyə ilə də açıq qarşıdurmaya girməyəcək: "Rusiyanın hədəfi M4 və M5 magistral yollarına nəzarəti ələ keçirməkdir. Bununla Hələb və İdlibi Lazkiyə və Dəməşqə bağlamağı planlaşdırırlar". T.Dağlı bildirir ki, İdlibdə iki quru yol ruslar üçün önəmlidir: "M4 və M5 yollarını tamamilə nəzarətə almaq istəyirlər. Buna nail olsalar, Hələblə İdlibin, dolayısı ilə Lazkiyə ilə Şamın əlaqəsi qurulacaq. Eyni zamanda, Hələbin Aralıq dənizinə çıxışı təmin ediləcək. Suriya iqtisadiyyatının yenidən qurulması üçün də bu vacibdir.

Rusiya qeyd olunan iki quru yolun şimalında qalan İdlibin mərkəzinin və Türkiyə sərhədində yerləşən digər bölgələrin "təhlükəsiz bölgə" kimi istifadə edilməsini təklif edir. Yəni "iki quru yol bizim, İdlibin mərkəzi və şimalı sizin olsun" deyirlər. Türkiyə əsgərinin bölgədə qalması məsələsində də dialoq təklifi ilə çıxış edirlər. Bəlli ki, Rusiya 5 marta qədər bu planı önə sürmək üçün hücumlarını artıracaq. Zirvə görüşünə gələndə, artıq iki quru yol tamamilə rusların nəzarətinə girəcək, beləliklə, istədiklərini alaraq masaya oturacaqlar.

Lakin ABŞ və NATO-nun İdlibdə əhəmiyyətli yerlərin rusların əlinə keçməsinə qarşı çıxması prosesi çətinə salır. Bölgədə ruslarla yanaşı İranın da olması, yeni Hələbdən Aralıq dənizinə çıxacaq strateji yolun başqa oyunçuların əlinə keçməsi ehtimalı Vaşinqtonu ciddi narahat edir".

Qeyd edək ki, İdliblə bağlı zirvə görüşü martın 5-də İstanbulda keçiriləcək. Zirvədə Türkiyə, Almaniya və Fransa liderləri iştirak edəcək. T.Dağlı yazır ki, Almaniya və Fransanın maraqları İdlibdə Türkiyə ilə toqquşur:"Lakin Avropa İttifaqı və NATO-nun iki önəmli üzvünün zirvədə iştirakı Rusiya üçün təzyiq elementidir.




Zirvə görüşünün planlaşdırıldığı vaxtda ABŞ Hərbi Dəniz Qüvvələrinin "USS Ross" adlı raketdaşıyan gəmisinin Qara dənizə daxil olması Rusiyanın diqqətini bu bölgəyə çəkdi. Qara dənizdəki Rusiya donanması ABŞ gəmisini izləyir. Montre sazişinə görə, ABŞ gəmisi dənizdə 21 gündən artıq qalmamalıdır, lakin təcrübədə amerikalılar müxtəlif bəhanələrlə bu müddəti uzadırlar. Bununla yanaşı, aprel ayında NATO-nun Şərqi Avropada son 25 ilin ən böyük təlimlərinə başlaması Rusiya üçün təhlükə siqnalları deməkdir. Gözləntilərə görə, Qərbin mümkün hücumları ilə qarşılaşacaq Moskvanın Ankara ilə qarşıdurma maraqlarına uyğun deyil".

Amma indilikdə Rusiya və Türkiyə diplomatları arasında danışıqlara baxmayaraq, Suriyanın şimalında gərginliyin artması müşahidə olunur. Hazırkı vəziyyət nəzarət altından çıxaraq genişmiqyaslı qarşıdurmaya da çevrilə bilər, çünki tərəflərdən heç biri geri çəkilməyi düşünmür. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, ABŞ və Avropa da artıq prosesdə maraqlı tərəfdir. Bu səbəbdən İdlib ziddiyyəti genişmiqyaslı savaşa çevrilə bilər. Ankara artıq ABŞ və Avropa müttəfiqlərindən dəstək istəyib. Bu istək illərlə ABŞ və Avropa müttəfiqlərə qarşı çıxdıqdan sonra Ankara tərəfindən edilmiş kəskin dəyişiklikdir və Türkiyə üçün Suriyada Rusiya ilə ehtimal olunan qarşıdrmanın necə təhlükəli olduğunu göstərir.

Xatırladaq ki, İdlib əyaləti Əsədə qarşı vuruşan üsyançı və cihadçıların son istehkamı sayılır. Bu bölgədə hərbi uğurların isə Suriya hakimiyyəti üçün nəhəng siyasi və iqtisadi dividendləri ola bilər. Amma Ankara İdlibi bu bölgədə özünün təsir zonası hesab edir və bu səbəbdən bölgədə hərbi cəhətdən möhkəmlənir. Türkiyə tərəfindən dəstəklənən, təlim və təchiz olunan qüvvələr də məhz İdlibdə yerləşir. Onu da qeyd edək ki, 2016-cı ildən bəri Türkiyə ordusu ilə müttəfiq suriyalı üsyançılardan ibarət qüvvələr Suriyanın şimalında üç əməliyyat keçirib. Lakin onlardan heç biri Əsəd qüvvələrinə qarşı yönəlməmişdi. İndi vəziyyət dəyişir. Hesab olunur ki, gələn ay Suryia üzrə razılaşma olmasa, bölgədə dəhşətl savaşın başlanması qaçılmaz olacaq. Xatırladaq ki, martın 5-də İstanbulda Rəcəb Tayyib Ərdoğan, Vladimir Putin, Angela Merkel və Emmanuel Makronun iştirakı ilə Suriya zirvəsi nəzərdə tutulur. Məhz burada razılıq əldə olunmasa, Suriyada təkcə Rusiya və Türkiyənin yox, həm də NATO-nun, İranın, ərəb ölkələrinin iştirakı ilə genişmiqyasıl bir savaş başlanması gözlənir. "Əl-Monitor" dərgisi bu xüsusda yazır:"Türkiyə ilə Rusiya 2015-ci ilin noyabr böhranına yaxınlaşan hərbi qarşıdurma nöqtəsinə gəlib çatıb. Türkiyə-Rusiya ortaqlığında açıq şəkildə çatlama başlayıb. Ankaranın NATO-ya meyl etməsi Türkiyənin İdlibdə və Liviyada qarşılaşdığı çətinlikdən qaynaqlanır. Ankara açıq şəkildə NATO, ABŞ və Avropanın ağır yüklərini İdlibdə tarazlığı düzəltmək üçün daha çox işə cəlb etməyə, Əsəd qüvvələrinin strateji M4 şossesi üzərində nəzarəti ələ keçirməsini qabaqlamağa çalışır. Amma NATO, ümumiyyətlə, Rusiyanı İdlibdə dayandırmağa qadirdirmi? Ukrayna davasını xatırlatmaq suala cavab vermək üçün kifayət ola bilər.

**Bu böhranda "ağlaya bilməyən nəhəng" kimi görünən NATO bölgədən və NATO müqaviləsinin kollektiv müdafiəyə dair 5-ci maddəsinin əhatə dairəsindən kənarda olduğu İdlib üzərində Rusiya ilə silahlı qarşıdurma risqini üzərinə götürə bilməz. Ankaranın təcili yardım istəyini yerinə yetirmədiyi təqdirdə, NATO Türkiyədəki nifrət obyekti vəziyyətinə dərhal qayıda bilər".**

***Nahid SALAYEV***

# Azərbaycan - Türkiyə ticarətində yeni hədəf - preferensial ticarət nə deməkdir...

**"2019-cu ildə ticarət dövriyyəmiz təxminən 4,5 milyard dollar oldu. Bu rəqəmi 2023-cü ildə, inşallah, 15 milyard dollara çatdıracağıq". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Prezident İlham Əliyevlə mətbuata bəyanatlarla çıxışında deyib.**



***Ruslan Atakişiyev:** "Bu o deməkdir ki, tərəflər ticarət əlaqələrini daha uyğun şərtlərlə həyata keçirəcəklər"*

Onun sözlərinə görə, dəmir yolu ilə bağlı da infrastruktur işlərinə başlanacaq və təbii ki, qısa müddətdə tamamlanacaq: "Bu sahədə daha bir önəmli addım qardaşım İlham Əliyevlə TANAP-ın Avropaya birləşən hissəsinin açılışını etməyimiz oldu. 2019-cu ildə ticarət dövriyyəmiz təxminən 4,5 milyard dollar oldu. Bu rəqəmi 2023-cü ildə, inşallah, 15 milyard dollara çatdıracağıq. Hədəfimiz budur. Buna da nail olmalıyıq. Bu gün imzalanan preferensial ticarət sazişimiz bu sahədə bizim üçün böyük önəm kəsb edir. Gömrükdən kənd təsərrüfatına, enerjidən nəqliyyata, texnologiyadan turizmə qədər hər sahədə əməkdaşlığımızı dərinləşdirəcəyik. Bundan başqa, rəqəmsal dövlət xidmətləri sahəsində, sərmayə bazarında, maliyyə sektorunda da yeni əməkdaşlıq imkanlarını araşdıracağıq".

Bütövlükdə, iki ölkə arasında ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması nə dərəcədə mümkündür? Preferensial ticarət sazişi ticarət dövriyyəsinin artmasında hansı rol oynayacaq?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, preferensial ticarət tərcihli ticarət deməkdir: "Bu o deməkdir ki, tərəflər ticarət əlaqələrini daha uyğun şərtlərlə həyata keçirəcəklər. Bu da ticarət əlaqələrinin genişlənməsinə öz töhfəsini verir.

*"İki ölkə arasında 2023-cü ilə qədər ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaq mümkün olacaq"*

Türkiyə Azərbaycanla ticarət əlaqələrində idxal və ixrac üzrə üçlükdə yer alır. Hətta Azərbaycanla Türkiyə arasında olan ticarət dövriyyəsi digər türkdilli dövlətlərlə müqayisədə çoxdur. Bu da onu göstərir ki, iki ölkə arasında ticarət dövriyyəsi yaxın illərdə daha da artacaq. Bakı-Tiflis-Qars dəmir yolunun işə salınmasından sonra iki ölkə arasında olan ticarət əlaqələri genişlənir. Son illər əsasən qeyri-neft sektoru sahəsində əlaqələrin dərinləşdirilməsi qarşıya hədəf qoyulub. Hər iki ölkənin iş adamlarının bu işdə fəal iştirakı ticarət əlaqələrinin artmasına təsir edir. Nəzərə almaq lazımdır ki, Türkiyənin Orta Asiyanın türkdilli ölkələrlə ticarət əlaqələrinin genişlənməsində Azərbaycanın tranzit ölkə rolunda çıxış etməsi də buna öz müsbət təsirini göstərir. Türkiyənin bir sıra qurumlarının da bu işə təsiri var. Türkiyənin Xarici İqtisadi Əlaqələr qurumu iki ölkənin iş adamlarının birlikdə hərəkət etməsinə dəstək göstərir. Bununla belə, iki ölkə arasında qarşılıqlı investisiya qoyuluşlarının həcmi artır. Bütün bunlardan çıxış edərək hesab edirəm ki, iki ölkə arasında 2023-cü ilə qədər ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaq mümkün olacaq".

***Vidadi ORDAHALLI***

# Özbəkistanın "Pravda Vostoka" qəzetində Yunus Oğuzun müsahibəsi çap olundu

**Qələmə aldığı əsərləri, tarixi romanları təkcə Azərbaycanda deyil, eləcə də dünyanın əksər ölkələrində sevilən yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuza, xüsusilə Orta Asiya regionunda böyük maraq göstərilir. Bu da səbəbsiz deyil. Belə ki, yazıçının "Əmir Teymur" romanı Özbəkistanda Azərbaycanda olduğu qədər sevilir.**



*"Əsas prinsipim hökmdarların həyatlarını obyektiv şəkildə araşdırmaqdan ibarətdir"*

Elə bunun göstəricisidir ki, Özbəkistanın kütləvi informasiya vasitələri, müxtəlif qəzet və internet portalları müntəzəm olaraq yazıçı Yunus Oğuzdan müsahibə götürürlər. "OLAYLAR" xəbər verir ki, bu günlərdə Yunus Oğuzun Özbəkistanda nəşr olunan "Pravda vostoka" qəzetində növbəti müsahibəsi dərc edilib. Müsahibədə müəllif qeyd edir ki, Yunus Oğuz tanınmış azərbaycanlı yazıçı-türkoloq, tarixçi, publisist, politoloq və jurnalist olmaqla yanaşı, həm də bir sıra elmi və bədii əsərlərin müəllifidir. Ona xüsusi populyarlıq qazandıran isə dünyanın müxtəlif dillərinə tərcümə edilmiş tarixi romanlarıdır. Bundan başqa, bütün dünyada yazarın "Türkün gizli tarixi", "Əmir Teymur:Zirvəyə doğru", "Türkün tarixinə yeni bir baxış", "Qədim Anadolu və Azərbaycan türkləri" və sairə bu kimi tarixi-publisistik əsərləri məşhurdur. Müsahibədə daha çox müəllifi olduğu "Əmir Teymur" romanına diqqət çəkən yazıçı qeyd edib ki, bir zamanlar Əmir Teymuru neqativ tərəfdən təqdim etmək üçün hər şey edilib. Lakin həqiqətdə onun Mərkəzi Asiya regionunda dövlətçiliyin inkişafında qoyduğu misilsiz səyi danmaq olmaz: " Misal üçün, Cəlaləddin Məngübirdi Çingiz xanın dövründə yaşayıb və tarixdə ona qarşı mübarizə aparan bir şəxsiyyət kimi yadda qalıb. Çingiz xanın tarixindən yazarkən bu faktı görməzdən gəlmək olmaz. Bu bizim ümumi tariximizdir və insanlara bu həqiqətləri olduğu kimi çatdırmaq lazımdır ki, xalq öz qəhrəmanlarının tanıya bilsin. Tarixi mənbələrdə onların fəaliyyəti ilə bağlı təhrif olunmuş və ya onların xidmətləri haqqında ötəri yazılmış faktları oxuduqda çox təəssüflənirəm. Mənim əsas prinsipim hökmdarların həyatlarını obyektiv şəkildə araşdırmaqdan ibarətdir". Tarixi romanları qələmə alarkən tarixi mənbələrə daha çox diqqət yetirdiyini deyən Yunus Oğuz bildirib ki, hər zaman yazdığı qəhrəmanlar haqqında həmin dövrün orjinal materiallarına əsaslanıb: "Məsələn, "Nadir şah" romanını yazarkən, o vaxtın bütün ədəbiyyətını araşdırmışdım. Əmir Teymurun bioqrafiyası ilə tanış olarkən isə "Zəfərnamə"ni diqqətlə təkrar-təkrar oxumuşdum. Çalışırdım daha çox XIX və XX əsrlərin ədəbiyyatına müraciət edim. Birmənalı şəkildə obyektiv informasiya mənbələrini tapmaq çox vacibdir". Müsahibədə Əmir Teymur şəxsiyyətinə böyük hörmətlə yanaşdığını ifadə edən yazıçı qeyd edib ki, Əmir Teymur qanunlar məcəlləsini yaradaraq özü də həmin qanunlara əməl edirdi: "35 il ərzində bu dahi hökmdar bircə dəfə olsun döyüşdə uduzmayıb. Tarixdə bu kimi şeylərə nail olan çox az olub. Əmir Teymur qlobal düşünürdü. Əsl bir hökmdar kimi. O, gələcəyi görüb proqnozlar verərək, fəaliyyət strategiyasını qururdu. Əgər həyat ona şans versəydi, Teymurun ordusu Afrikanı belə tutacaqdı. Burada Teymurun planlarına nəzər salaraq, onun hədəflərinin nə qədər böyük olduğunu görə bilərik. Məhz ona görə də xalqın qəhrəmanına çevriləcək şəkildə dahi sərkərdə və hökmdarın obrazı insanlarda heyranlıq yaratmaya bilməz". Gələcək planları barədə də söz açan Yunus Oğuz bildirib ki, hazırda elmi-fəlsəfi və tarixi işlər üzərində çalışır: "Bu yaxınlarda Çingiz xanın və Məngübirdinin ömür yolundan bəhs edən kitabı yekunlaşdırmışam.

**Növbəti hədəfim yeni əsər üzərində çalışmaqdır. İstərdim ki, bütün türk dünyasına dahi hömkdarlar haqqında əsl həqiqətləri çatdırım. Azərbaycanda ümumi təhsil proqramına Əmir Teymurun həyat və yaradıcılığına aid kitablar əlavə olunub. Məhz məktəblər sayəsində bizlər uşaqlara ümumi tarixi və türkün zəngin mədəniyyətini aşılaya bilərik. Əsərlərin ekranlaşdırılması və bütün dünyaya yayılması isə ayrıca bir müsbət hal olardı".**

# Çanaqqalada Azərbaycan şəhidlərinə xüsusi abidə...

**Məhərrəm Zülfüqarlı:** *"...onlara həmin ərazidə ayrıca abidə qoyulması vacibdir"*

**Türk dünyasının fəxr və qürur hissilə andığı Çanaqqala şəhidlərinin xatirəsi, Türkiyədə olduğu kimi, Azərbaycanda da əziz tutulur. Tarixən bir-birinə arxa-dayaq olan Türkiyə və Azərbaycan qardaşlıq ənənələrinə sadiq qalaraq hər zaman həmrəy olmağı bacarıblar.**

Əsası dünənlərdə qoyulan böyük tarixi ənənə, bağ bu gün də öz möhkəmliyi, monolitliyi ilə diqqəti çəkir.

Çanaqqala savaşında osmanlılarla çiyin-çiyinə işğalçılara qarşı vuruşanlar sırasında Azərbaycan türklərinin, könüllü vətən övladlarının olması da ayrıca bir qürur ünvanıdır.

Qeyd edək ki, Birinci Dünya Müharibəsi dövründə, 1915-1916-cı illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri - İngiltərə, Fransa, Anzaklar arasında baş verən dəniz və quru döyüşü kimi tarixə düşən Çanaqqala savaşı Osmanlı Türkiyəsinin qələbəsi ilə başa çatıb.

Məlumdur ki, ittifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı qida və hərbi ticarət yolu açmaq, alman müttəfiqlərindən birini zəiflətmək məqsədilə ilk hədəf olaraq Çanaqqala boğazına daxil olmuşlar. Ancaq hücumları müvəffəqiyyətsiz olmuş və iki tərəfin də çox ağır itkilər verməsilə İttifaq dövlətləri geri çəkilmişlər. Bu döyüş məhvolma vəziyyətində olan bir ölkənin möhtəşəm qələbəsi kimi əfsanələşib, hər vətəndaşın xatirəsində qalıb. Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərmiş bu döyüş Türk Qurtuluş Savaşına da təsir edib. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi gün, yəni 18 mart Çanaqqala Şəhidlərini Anma Günü olaraq elan edilib. Müttəfiqlər üçün isə bu döyüş əsgəri bacarıqsızlıq və fəlakət simvolu olaraq sayılıb.

Çanaqqala savaşında Osmanlı türkləri ilə yanaşı, Azərbaycan türkləri də iştirak ediblər. "Qardaş qardaşın dar gündə köməyi olmalıdır" ənənəsinə sadiq qalan Azərbaycan türkləri Çanaqqala döyüşünə qatılaraq düşmən qüvvələrə qarşı mübarizə aparıblar.

Tarixi faktlara əsaslansaq, Çanaqqala döyüşündə Türkiyənin 253 min döyüşçüsü ilə yanaşı, 3 minə yaxın azərbaycanlı da şəhid olub.

Onu da qeyd edək ki, Çanaqqala savaşında şəhid olan azərbaycanlıların sayının üç min deyil, daha artıq olmasına dair dəqiqləşdirilməmiş məlumatlara da rast gəlinir.

Məlum olduğu kimi, ümumilikdə, Çanaqqala şəhidlərinə abidə qoyulsa da, burada qəhrəmancasına həlak olmuş azərbaycanlılara ayrıca abidə qoyulmayıb. Şəhidlərin uyuduğu məzarlıqda şəhid azərbaycanlılara aid bir lövhə var.

Bütövlükdə, Çanaqqala şəhidlərinə "Şəhidlər abidəsi" qoyulub. Bu öz yerində. Amma azərbaycanlı şəhidlərə də ayrıca abidənin qoyulması tarixi bir zərurət kimi meydana çıxıb. Dəfələrlə bu məsələ gündəmə gətirilsə də, təəssüf ki, hələ də Çanaqqalada şəhid olan azərbaycanlılara ayrıca abidə qoyulmayıb.

Tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, 1915-1916-cı illərdə Çanaqqala savaşında Azərbaycan könüllülərinin iştirakı, 1918-ci ildə Bakının və bölgələrimizin bolşevik-daşnak qaniçənlərindən azad olunmasında mühüm rol oynayan Qafqaz İslam Ordusunun xilaskarlıq missiyası iki qardaş ölkənin bir-birinə verdiyi dəyərin, qardaş dəstəyinin ən parlaq örnəkləridir: "Qafqaz İslam Ordusunun bizə göstərdiyi kömək, verdiyi dəstək unudulmazdır. Çanaqqala döyüşündə iştirak edən azərbaycanlı könüllülərin dəstəyi də böyük qardaşlıq nümunəsidir. Böyük ədibimiz Abdulla Şaiqin qardaşı Yusif Ziya Talıbzadə Çanaqqala savaşında çox böyük qəhrəmanlıqlar, şücaətlər göstərib. Bu onu göstərir ki, qardaş Türkiyə hər zaman bizə dəstək göstərdiyi kimi, Azərbaycan da Türkiyəyə dəstək göstərir. Azərbaycan könüllülərinin Çanaqqala savaşına getməsi, burada düşmənə qarşı vuruşması böyük bir qardaşlıq nümunəsi kimi xatırlanmalıdır. Onu da vurğulayım ki, hətta Hacı Zeynalabdin Tağıyev Çanaqqala döyüşlərində silah-sursat alınması və s. xərclər üçün böyük vəsait ayırıb.



*"Azərbaycan könüllülərinin Çanaqqala savaşına getməsi, burada düşmənə qarşı vuruşması böyük bir qardaşlıq nümunəsi kimi xatırlanmalıdır"*

Baxmayaraq ki, həmin dövrdə Azərbaycan Rusiya imperiyasının tərkibində idi. Bundan başqa, Birinci Dünya Müharibəsində əsir türkləri gətirib Nargin adasında saxlayırdılar. Əsirlərin azad olunmasında da onun böyük rolu olub. Yəni bu onu göstərir ki, daim iki qardaş xalq bir-birinə dəstək olub. Hesab edirəm ki, könüllü olaraq Çanaqqala savaşında iştirak edən və şəhid olan azərbaycanlıların xatirəsinin əbədiləşdirilməsi, onlara həmin ərazidə ayrıca abidə qoyulması vacibdir. Həmçinin, Bakıda Qafqaz İslam Ordusuna abidə ucaldılmalıdır. Bu abidələrin qoyulması ona görə vacibdir ki, qardaş Türkiyə vətəndaşları bu abidəyə baxıb Azərbaycan türklərinin dar gündə onların köməyinə yetdiklərini biləcəklər. Bununla yanaşı, Bakıda Qafqaz İslam Ordusuna abidə qoyulsa, bizim yeni nəsil onların şücaəti, dəstəyi haqqında daha dəqiq məlumata malik olacaq. Bu olduqca vacibdir".

**M.Zülfüqarlı hesab edir ki, onların tarixi qardaşlıq missiyasının bütün nəsillərin yaddaşında qalması üçün bu abidələrin ucaldılması böyük rol oynaya bilər.**

***İradə SARIYEVA***

# İtaliyada Azərbaycan günləri - ermənilərin mənimsəmək istədikləri mədəni irs nümunələrimizi dünyaya təqdim etmək üçün fürsət...

*Fəridə Mirişova: "...həm italiyalılar, həm də onun qonaqları üçün ermənilərin iç üzünün açılması baxımından yeni informasiyalar verər"*

**2020-ci ilin İtaliyada "Azərbaycan İli" elan olunması doğrudan da əlamətdar bir hadisədir. Azərbaycan mədəniyyətinin, humanitar-kultroloji düşüncəsinin, sərvətlərinin, xalqımıza məxsus maddi və qeyri-maddi mədəni irsin dünyanın ən böyük mədəniyyət mərkəzlərindən biri olan İtaliyada təbliği olduqca mühümdür.**

2020-ci ilin İtaliyada "Azərbaycan İli" elan edilməsi bu baxımdan qarşımızda çoxlu yollar, istiqamətlər açır.

Onu da vurğulayaq ki, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella fevralın 20-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə birgə mətbuata bəyanatlarla çıxış edib. "Mən artıq cənab Prezidentə bu barədə bildirdim ki, 2020-ci il İtaliyada "Azərbaycan İli" elan olunub. Bu, bizim əlaqələrimizi, dostluğumuzu, əməkdaşlığımızı artırmağa kömək edəcək və iki ölkə arasında münasibətləri daha da intensivləşdirəcək. Bundan başqa, biz, həmçinin Dağlıq Qarabağla bağlı müəyyən bir sabit nəticənin əldə olunması haqqında danışdıq. Biz bu məsələyə İtaliya tərəfindən hər zaman dəstək olduğumuzu bildiririk. Biz ümid edirik ki, bu məsələ üzrə siyasi danışıqlar sayəsində qısa bir zamanda müəyyən nəticələr əldə olunacaq" deyə İtaliya Prezidenti qeyd edib.

"Azərbaycan İli" çərçivəsində İtaliyada Azərbaycan mədəniyyətinin tanıdılması üçün silsilə tədbirlərin keçiriləcəyi, sərgilərin təşkil ediləcəyi, habelə ədəbiyyat, musiqi, kino həftələrinin baş tutacağı məlumdur. Bunlar öz yerində. Bizi əsas məşğul edən məsələ bir başqadır. Bilirik ki, ermənilər Azərbaycana aid maddi və qeyri-maddi irs nümunələri mənimsəyərək öz adlarına təqdim edirlər. Ermənilərin mənimsədiyi Azərbaycana məxsus maddi və qeyri-maddi irs nümunələrinin dünyada təbliği baxımından "Azərbaycan İli" çox böyük əhəmiyyət daşıyır. Ermənilərin həm işğal altında saxladıqları Dağlıq Qarabağ və ətraf rayonlardan yağmaladığı, Qərbi Azərbaycandan soydaşlarımızı deportasiya etdikdən sonra onlardan oğurladığı maddi-mədəni irs nümunələrini, eləcə də digər vasitələrlə ələ keçirdikləri mədəni sərvətlərimizi öz adlarına, "erməni maddi-mədəni irs nümunələri" kimi təqdim etdiyini ifşa etmək üçün "Azərbaycan İli" çərçivəsində hansı işləri görmək olar?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun musiqi folkloru şöbəsinin elmi işçisi Fəridə Mirişova bakixeber.com-a bildirdi ki, bunun üçün çox işlər görə bilərik. F.Mirişovanın vurğuladığına görə, 2020-ci ilin İtaliyada "Azərbaycan İli" elan edilməsi bizim əlimizə kifayət qədər fürsətlər verir ki, ermənilərin bizim mədəniyyətimizə, maddi-mədəni irsimizə qarşı oğurluqlarını beynəlxalq aləmdə ifşa edək. Bunun üçün əlimizdə kifayət qədər əsaslar olduğunu deyən F.Mirişovanın sözlərinə görə, biz həmin maddi və qeyri-maddi irs nümunələri ilə bağlı ayrıca pavliyonlar, stendlər yaratmalıyıq, burada həmin irs nümunələrinin tarixi, bizə aid olduğunu sübut edən çoxlu faktlar yerləşdirməliyik. F.Mirişova onu da qeyd etdi ki, ermənilər folklor irsimizdən tutmuş muğam, xalq mahnılarımıza, aşıq sənətimizə, xalçalarımıza, mətbəximizə, abidələrimizə qarşı çox çirkin siyasət yürüdür və bu siyasətin qarşısının alınması üçün İtaliyada çoxlu işlər görülməlidir.



"Ermənilərin Azərbaycan xalqına aid maddi və qeyri-maddi mədəni irs nümunələrini oğurlaması, bu oğurluğun miqyasını günü-gündən genişləndirməsi faktdır. Bütün dünya bunu bilir, beynəlxalq təşkilatlar bu faktlardan xəbərdardır, amma müəyyən səbəblərdən buna heç bir reaksiya vermirlər. 2020-ci ilin İtaliyada "Azərbaycan İli" elan edilməsi çox mühüm bir hadisə olmaqla yanaşı, həm də bizim qarşımızda Azərbaycan mədəniyyətini, eləcə də ermənilər tərəfindən oğurlanan, talanan, mənimsənilən və öz adlarına təqdim edilən maddi və qeyri-maddi mədəni irs nümunələrinin təbliği üçün yeni yollar, imkanlar açır. Ermənilər tərəfindən işğal altında saxlanan Qarabağda bizim saysız maddi və qeyri-maddi irs nümunələrimiz, abidələrimiz qalıb. Bu gün o maddi və qeyri-maddi mədəni irsə əlimiz çatmır, ermənilər onların başına min oyun gətirib. Təklif edərdim ki, İtaliyada "Azərbaycan İli" çərçivəsində erməni təcavüzünə məruz qalan maddi və qeyri-maddi irs nümunələrimizin tarixinə aid posterlər hazırlansın və onların sərgiləri keçirilsin. Bu sərgilərin keçirilməsi vacibdir. Digər tərəfdən, əsrlərdən bəri ermənilər tərəfindən mənimsənilən milli musiqimizlə bağlı xüsusi layihələr hazırlamaq, təqdimatlar keçirmək olar ki, bu ermənilərin deyil, bizim musiqimizdir, amma ermənilər onları oğurlayıb. Bununla bağlı kitablar, xüsusi buraxılışlar hazılayıb təqdim etmək mümkündür. Mətbəximiz də erməni təcavüzünə mərzu qalıb. Bilirik ki, ermənilər bizim mətbəxi də mənimsəyib və bütün dünyada Azərbaycan yeməklərini, xörəklərini öz adlarına təqdim edirlər.

Mətbəximizlə bağlı sərgilər təşkil etmək, onun tarixinə aid kitabların təqdimatını keçirmək olar. "Azərbaycan İli" çərçivəsində ermənilər tərəfindən oğurlanan maddi və qeyri-maddi irs nümunələrimizin sərgilərinin, təqdimatlarının keçirilməsi, onların tarixinin geniş təbliğ olunması həm italiyalılar, həm də onun qonaqları üçün ermənilərin iç üzünün açılması baxımından yeni informasiyalar verər" - deyə bildirən F.Mirişova hesab edir ki, Azərbaycanda yaşayan qeyri-xalqların da mədəniyyətinə aid sərgilər açmaq olar.

**"Bilirsiz, Azərbaycan çoxmillətli bir ölkədir və burada yaşayan azsaylı xalqların hamısı öz mədəni irslərini qoruyurlar. Azərbaycan xalqı, dövləti azsaylı xalqların mədəni irsinin qorunmasında maraqlıdır. Ermənilərdən fərqli olaraq Azərbaycan xalqı başqa xalqların mədəni irsinə qarşı heç bir iddia irəli sürmür. Bu da bir nümunədir və hesab edirəm ki, o da İtaliyada təbliğ olunmalıdır" - deyə F.Mirişova bildirdi.**

***İradə SARIYEVA***

№ 36 (4167) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

27 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Balidə Roma muncuqları aşkarlanıb

**Balidə qızıl suyuna salınmış 43 şüşə muncuq dənəsi aşkarlanıb. Şüşə və hazırlanma texnikasına əsasən onlar eramızdan əvvəl IV-I əsrlərdə Roma dövründə Misirdə düzəldilib.**

Bu cür muncuqlar az miqdarda daha əvvəl Cənubi Hindistanda, Malay yarımadasında tapılıb. Onlar şəffaf, ya da açıq sarı şüşədən ikiqat hazırlanıb və qatların arasına nazik qızıl təbəqəsi yerləşdirilib. Bu cür muncuqlar eramızdan əvvəl IV əsrdə Misirdə düzəldilməyə başlanıb və sonra həmin texnologiya geniş yayılıb.

"AZƏRTAC" bildirir ki, Balidə muncuqlar qismən tədqiq olunan Panqkunq Paruk abidəsində aşkar edilib. Görünür ki, bu, nekropoldur - arxeoloqlar və torpağın sahibi dörd daş sarkofaq aşkar ediblər. Onların içində çoxlu sayda əşya var. Cənubi-Şərqi Asiyada bu cür muncuq hələ tapılmayıb. Qızılla işlənmiş muncuqla yanaşı, iki cüt qızıl sırğa, iki Çin bürünc güzgüsü tapılıb. Sırğaların analizi göstərir ki, onların hazırlandığı metal Mərkəzi Vyetnam və Laos qızılına oxşayır. Güzgü isə Çində Xan dövründə hazırlanmış oxşar materialdandır. Tədqiqatın nəticələri "Antiquity" jurnalında dərc edilib. Tapıntılar Balinin geniş ticarət əlaqələrindən xəbər verir. Roma bəzəkləri adaya görünür ki, ya Hindistan və Malay yarımadası, ya da Hindistandan dəniz vasitəsilə gəlib çıxıb. Bali muncuqları Qədim Romanın uzaq əlaqələrindən xəbər verən yeganə sübut deyil. Daha əvvəl Yaponiyada Roma sikkələri və boşqabı tapılması, habelə romalıların Çin təbəəti haqqında məlumatlı olması barədə xəbər verilib.

## Yer kürəsinə yaxınlaşan asteroidləri kənarlaşdırmaq mümkün olacaq

**"ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun tədqiqatçılar qrupu asteroidlə mümkün toqquşmanın qarşısını almağa kömək edəcək yeni sistem hazırlayıblar".**

"Modern.az" bildirir ki, mütəxəssislər yaxınlaşan asteroidin sürətini, kütləsini nəzərə alan və obyektin Yer kürəsinin qravitasiya sahəsinə daxil olmasına nə qədər vaxt qaldığını hesablayan "qərarlar xəritəsi"ni təsvir ediblər. Sözügedən sistem hadisələrin inkişafının 3 müxtəlif variantını, yaxınlaşan asteroidin uçuş trayektoriyasının dəyişdirilməsi üçün 3 həll yolunu təsvir edir. Bu, mərminin işə salınması, lazımi xarakteristikalarını hesablamağa imkan verəcək məlumatların əldə olunması üçün asteroidə kəşfiyyatçı qurğunun göndərilməsi, mühərriklərdən istifadə edərək asteroidin uçuş trayektoriyasını müəyyən qədər dəyişdirə biləcək iki kəşfiyyatçı qurğunun göndərilməsidir. Kəşfiyyatçı qurğulardan əldə olunan məlumatların köməyilə asteroidin mərmi ilə partladılması planlaşdırılır. Qeyd edək ki, hazırda kosmik obyektlərlə toqquşmanın qarşısının alınması üzrə rəsmi plan nüvə silahından istifadəni nəzərdə tutur. Lakin bu plan tənqidlərə məruz qalıb və effektsiz hesab edilib.



## "Azercell" ADA Universitetinin təqaüd proqramına dəstək olur

**Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafına daim töhfə verən "Azercell" şirkəti bu sahə üzrə savadlı kadrların yetişdirilməsinə xüsusi diqqət ayırır.**

Bu dəfə lider mobil operator ADA Universitetinin İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsində təhsil alan və fərqlənən tələbələr üçün təqaüd ayıraraq, onların fərdi və peşəkar inkişafına dəstək olub.

Tələbələr fevral ayının 21-i ADA Universitetində təşkil edilən "Akademik mükəmməllik günü"ndə təltif ediliblər. Beləliklə, 4 tələbə dünya şöhrətli azərbaycanlı alim və qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadə adına təqaüdə layiq görülərək təhsil haqqından tamamilə azad olunub. Əlavə olaraq, 22 tələbə 50, 23 tələbəsi isə 25 faiz təhsil güzəşti əldə edib.

Xatırladaq ki, "Azercell Telekom" MMC 2013-cü ildən başlayaraq ADA Universitetinin fonduna maliyyə yardımı edir. Sosial layihələrin təşəbbüskarı və fəal iştirakçısı olan şirkət fəaliyyət dövrü ərzində bu istiqamətdə 19 milyon dollardan artıq yatırım edib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki şəhər sakini Hümmətova Rəhimə Zəkəriyyə qızının adına verilmiş 2240 / 2563 qeydiyyat nömrəli (reyestr kitabı № 6) qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qazax rayonu Daş Salahlı kənd 2 saylı orta məktəbi tərəfindən 1994-cü ildə Mancanova Balaqız Konfrans qızına verilmiş 11 illik tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Emosional baxımdan kasad gün olsa da, iş qabiliyyəti və ambisiyalar güclənir. İş sistemli yanaşma tələb edir. Maliyyə məsələlərinin həlli, yeni əməkdaşlıq formalarının axtarışı, fəaliyyətin optimallaşdırılması üçün əlverişli vaxtdır.



**Buğa** - Kollektiv qərarlar məqsədə doğru hərəkəti sürətləndirə bilər və bunun üçün ambisiyalarınızdan keçməyin. Bütün təsir rıçaqlarına malik deyilsinizsə, proseslərə nəzarət etməyə çalışmayın.



**Əkizlər** - Yeni məlumatlarla informasiyalar həyatınızdakı bəzi dəyərlərlə bağlı düşünməyə vadar edəcək. Yeni planların reallaşdırılması üçün daha çox məkan və vaxta ehtiyacınız var.



**Xərçəng** - Bir qədər tək qalın, strateji məqsədləri düşünün, işin məqsədi və münasibətlərin mənalarını təhlil edin. Gün ünsiyyət, qəfil görüş və həllər vəd edir. Əgər hansısa söhbətə ehtiyac duyursunuzsa, əlverişli mühit yaradın.



**Şir** - Qarşılıqlı mənfəət vəd edən yeni əməkdaşlığa başlamaq vaxtıdır. Lakin ehtiyatlı olun, çünki enerjiniz ikinci dərəcəli məsələlərin həllinə yönələ bilər. Həmin məsələlər emosional baxımdan cazibədar olsa da, yetərli potensiala malik deyil.



**Qız** - Yeni planlar və istəklər var. Lakin sizi nə isə geri çəkir, həyata keçməyən və reallaşmayan arzularla ümidləri yada salır. Pərişan edən informasiya ala bilərsiniz. Harayasa getmək, problemləri həll etmək, çətin vəziyyətdən çıxış yolu aramaq ehtiyacı yaranıb.



**Tərəzi** - Maneələrlə sədləri aradan qaldıraraq yaxın ətrafınızdakı insanlara başa salın ki, sizə mane olmasınlar. Mühüm informasiyanın alınması mümkündür. Faydalı ideyalar istisna deyil. İşgüzar əməkdaşlıqda yeniliklər, problemlərin uğurlu həlli, suallara tam cavabların alınması mümkündür.



**Əqrəb** - Problemlər çətinləşir, situasiya isə inkişaf və transformasiya istəyir. Ambisiyalarınız arta bilər. Vurnuxmaya çox fikir verməyin. Yalnız perspektivdə gərəyiniz ola biləcək informasiyaya fikir verin.



**Oxatan** - Mənasız hay-küy, fəallıq az olmaycaq. Lakin məlumatları və gələn informasiyaları süzgəcdən keçirməklə onların arasında dəyərli nə isə aşkarlaya bilərsiniz. Həyatınızı çətinləşdirən məqamlarınızdan bəhrələnməyə çalışın.



**Oğlaq** - Diqqəti bir mövzuda, bir işdə cəmləşdirin. Günün ikinci yarısı işgüzar görüşlər və danışıqlar üçün faydalıdır. Rəhbərlik və ya tərəfdaşla yeni ideyanı müzakirə etmək, köhnə planlarla ideyaları nəzərdən keçirmək olar.



**Dolça** - Mövcud şərtlər sizi qıcıqlandıracaq. Rəqiblərin əməllərinə fikir verməyin, tərəfdaş və ya həmkarlarla fəaliyyətinizin nizamlanmasına çalışın. Şəxsi münasibətləri qulaqardına vurmayın, işi yaşam mütləqiyyətinə çevirməyin.



**Balıqlar** - Tələsməyin, işlərin hamısını eyni vaxtda görməyə çalışmayın. Bir qədər fasilə edin. İşdə münasibətlərin gərginləşməsi, düşünülməmiş qiymətləndirmələr, ifrat məsuliyyət mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Kosmosun dərinliyində nəhəng səkkizayaqlı ilbizlər var

**İngilis astronavt Meri Qreydi bütün dünyanın diqqətini cəlb edəcək bir açıqlama verib. "Ted.az" bildirir ki, M.Qreydinin sözlərinə görə, kosmosun dərinliklərində nəhəng səkkizayaqlı ilbizlər yaşayır. Digər planetlərdə canlı olub-olmadığı insanlığın yaranışından bəri düşündürən məsələlərdən biridir. M.Qreydinin açıqlaması yenidən bu məsələni gündəmə gətirib.**

Britaniyalı astronavt qeyd edib ki, Yüpiterin peyklərindən biri olan Avropada həyat ola biləcəyi ehtimalı demək olar ki, yüz faizdir. O hesab edir ki, bu yaşam forması səkkizayaqlı ilbizləri andırır. Aydan bir qədər kiçik olan və səthi buzla örtülmüş Avropanın buz təbəqəsinin altında okean olduğu da M.Qreydinin iddiaları arasında yer alır. Qreydi sözügedən okeanda canlı məxluqların olduğuna əmindir. O, Marsdakı yeraltı mağaralarda da canlıların ola biləcəyini düşünür. Hətta mağaraların bu məxluqları təhlükəli radiasiyadan qoruduğunu deyir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

*Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.